**R.Hüseynov.** Yaşadığımız ilin hər günü bizim üçün son dərəcə əlamətdar və əzizdir. Çünki bu il bizim istiqlalımızın, dövlət müstəqilliyimizin 100 yaşının tamam olduğu ildir. Qarşıdan daha böyük bir bayram da gəlir. Dekabr ayının 7-i Məclisi-Məbusanın, milli parlamentimizin yaranışının, ilk iclasının baş tutduğu gündür. Düşünürəm, baxmayaraq, daha öncə parlamentimizin 100 illiyini yüksək təntənə ilə, dövlət rəhbərliyi səviyyəsində qeyd etdik, inanıram ki, biz dekabrın 7-də, ya o ərəfədə parlamentimizin 100 illiyi ilə əlaqədar ayrıca iclasımızı da keçirməliyik. Düşünürəm ki, 100 illik tariximiz bizim bir təkan nöqtəmizdir. Çox şərəfli bir təkan nöqtəsidir. Orası da çox yaxşıdır ki, ayrı-ayrı bayramlarımız, peşə bayramlarımız məhz həmin tarixdən başlanır.

İndi noyabr ayı gəlir və noyabr ayının 6-da biz adətən Azərbaycan radiosu və televiziyasının, Azərbaycan efirinin bayramını qeyd edirik. XX yüzildə Azərbaycan xalqının ictimai-siyasi həyatında radio son dərəcə böyük rol oynamışdır. Radio və televiziyanın həyatımızdakı yeri misilsizdir. Azərbaycan radiosunun daimi yayımları 1926-cı ildən başlanıb. Əslində isə bu tarix daha əvvəldən başlanır. 1919-cu ilin noyabr ayında Əlimərdan bəy Topçubaşov Parisdə Fransanın hərbiyyə naziri polkovnik Kartiyeyə və ardınca da xarici işlər naziri Dorseyə məktublar göndərərək xahiş edir ki, Eyfel qülləsində yerləşən Avropa stansiyasından Gəncəyə teleqram göndərmək üçün icazə verilsin. Çünki Gəncədə Azərbaycanın ilk radiostansiyası yaranırdı və Əlimərdan bəy Topçubaşov da məhz 1919-cu ilin noyabr ayında, Gəncədə yaranan həmin ilk Azər-

baycan radiostansiyasına Eyfel qülləsindəki Avropa radiostansiyasından teleqram göndərir. Həmin teleqramın mətni də Əlimərdan bəy Topçubaşovun Paris arxivinin sənədləri içərisində nəşr edilib.

Bu məzmundadır o teleqram, deyir: "Azərbaycan xalqının mədəni və iqtisadi tərəqqisində böyük rol oynayacaq birinci Azərbaycan radiosunun fəaliyyətə başlaması münasibəti ilə xalqımızı təbrik edirəm".

Ortada sənədlər, sübutlar, tarix var. Əgər bizim radionun tarixi 1926-cı ildən deyil, daha əvvəldən, 1919-cu ildən, məhz Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu vaxtdan başlayırsa və əksər peşə bayramlarımızın başlanğıc tarixini biz 1918 və 1919-cu illərdən götürürüksə, düşünürəm ki, Azərbaycan efirinin tarixini, bayramını da oradan başlamalıyıq. Elə olarsa, gələn il biz böyük təntənə ilə Azərbaycan efirinin, radio və televiziyamızın yaranışının 100 illiyini bayram edə bilərik. Təşəkkür edirəm.

**Sədrlik edən.** Fəzail Ağamalı.

**F.Ağamalı.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, media nümayəndələri! Son 10 gündə Azərbaycan dövləti ilə bağlı 2 mühüm hadisə baş verdi. Mən istərdim ki, bir millət vəkili olaraq öz fikrimi ifadə edim. Bunlardan biri qardaş Türkiyədə ölkə Prezidenti İlham Əliyevin ideyası və SOCAR-ın təşkilatçılığı ilə həyata keçirilmiş son dərəcə uğurlu bir layihənin başa çatması, Star neft-kimya zavodunun açılışı və Azərbaycan Respublikasının Prezidenti ilə Türkiyə Prezidentinin açılış mərasimində iştirak etməsi oldu. Bu, bir daha Azərbaycanla Türkiyə arasında qardaşlığın və dostluğun ifadəsi kimi tarixə düşdü. Təbii ki, bu, həm Türkiyəyə, həm də Azərbaycana ciddi iqtisadi və maliyyə dividendləri gətirəcək və şübhəsiz, həm də Türkiyə ilə Azərbaycan arasında münasibətlərin

bundan sonra da daha ciddi zəmin üzərində inkişafında mühüm rol oynayacaq. Eyni zamanda, bu sübut etdi ki, Azərbaycan miqyasında və onun xaricində ulu öndərimiz tərəfindən müəyyən olunmuş neft strategiyası çox böyük uğurla davam etməkdədir. Əlbəttə, bunun tarixi əhəmiyyətini mən qeyd etməyi özümə borc bilirəm.

İkinci hadisə isə bir neçə gün bundan öncə Bakı şəhərində növbəti 6-cı Bakı Beynəlxalq Humanitar Forumunun keçirilməsi idi. Göründüyü kimi, hər forum özünün yeni keyfiyyətləri ilə daha çox insanları, tanınmış insanları, dövlətləri öz ətrafında cəmləşdirməklə ciddi bir platforma kimi özünü təsdiq etməkdədir. Eyni zamanda, artıq Bakı şəhərini dünyanın ciddi siyasi və humanitar mərkəzlərindən birinə çevirməkdədir. Əlbəttə, bu, dövlətimizin gücüdür, qüdrətidir, nüfuzudur. Onun beynəlxalq aləmdə yerinin daha da möhkəmlənməsində xüsusi rol oynayan ciddi hadisədir ki, əlbəttə, bunu qeyd etməyi bir millət vəkili kimi özümə borc bildim. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əgər başqa çıxış etmək istəyən yoxdursa, icazə verin, qanun layihələrinin müzakirəsinə başlayırıq. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Konstitusiya qanununun layihəsi haqqında. Üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli Ziyafət müəllim. Bu layihə ilə bağlı ikinci oxunuşda hər hansı təklif daxil olmamışdı. Bilirsiniz ki, layihə normativ hüquqi aktların adı ilə bağlıdır. Ona görə də hörmətli millət vəkillərindən səs verməyi və Konstitusiya qanunu olduğuna görə səsvermədə diqqətli olmağı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.22 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi¸ sağ olun.

Azərbaycan Respublikasının "Diplomatik xidmətə verilən töhfəyə görə" medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Hörmətli Ziyafət müəllim, ikinci oxunuş zamanı hər hansı təklif, irad daxil olmamışdı. Ona görə səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Təklif varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Onda, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.23 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019)" yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bildiyiniz kimi, bu il Xalq Cümhuriyyəti ili elan olunub və bu il ərzində biz bir sıra yeni yubiley medalları təsis etdik. Güc strukturlarının, hüquq mühafizə orqanlarının və bu sırada dövlət təhlükəsizliyi və xarici kəşfiyyat orqanlarının 100 illiyi (1919–2019) yubiley medalının da təsis olunması təqdirəlayiq haldır. İkinci oxunuşda təkliflər daxil olmamışdı, səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.24 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. İsa müəllim, buyurun.

**İ.Həbibbəyli,** *Milli Məclisin Elm və təhsil komitəsinin sədri.*

İkinci oxunuş zamanı nəzərdə tutulan dəyişikliklə bağlı geniş müzakirələr aparılsa da, mahiyyət etibarı ilə təklif olunan qanun layihəsinin dəyişilməsinə təsir göstərən müddəalar ortaya çıxmamışdır. Ona görə təklif olunan layihənin olduğu kimi səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Xahiş edirəm, əgər əlavə təkliflər yoxdursa, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.25 dəq.) |
|---|---|
| Lehinə | 102 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 102 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə, ikinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli həmkarlar, bu məsələdə, Mülki Prosessual Məcəlləyə edilən dəyişiklikdə 2006-cı il yanvar ayının 1-dək Azərbaycana gəlmiş və burada yaşayan şəxslərin daimi yaşama faktının məhkəmə qaydasında təsdiqi proseduru öz əksini tapmışdı. Çünki bilirsiniz ki, 2006-cı ildən sonra Dövlət Miqrasiya Xidməti yaradıldı və artıq vahid informasiya mərkəzi mövcuddur. Yəni bu məsələ prosessual qanunvericiliyə məhz ona görə daxil edilir. İkinci oxunuş zamanı da təkliflər olmamışdı,

dəstəklənmişdi. Səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Fərəc Quliyev.

**F.Quliyev**. Çox təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli həmkarlar, mən bu məsələ ilə bağlı əvvəlki oxunuşda da münasibət bildirmişdim. Biz 2006-cı ilə qədər Azərbaycana gəlmiş adamlar haqqında o müddəanı saldıq, etiraz eləmədik. Amma bir məsələ var ki, 2006-cı ilə qədər Ermənistandan qovulmuş adamlar da bura gəliblər və Ermənistan Respublikasının vətəndaşı olaraq, o pasportlarla gəliblər. Mən hesab edirəm ki, burada yüz minlərlə insanın taleyi var. Onların günün birində qayıtmaları və ya siyasi məsələlərdə bu elementdən istifadə edilməsi ilə bağlı olaraq xüsusi bir müddəanın salınmasını təklif eləmişdim ki, həmin adamlara, yəni Qərbi Azərbaycandan qovulmuş insanlara Azərbaycan Respublikası vətəndaşına məxsus olan hüquqlar verilməsi şərti ilə burada müvəqqəti olaraq yaşamaları nəzərə alınsın. Amma Ermənistan Respublikası vətəndaşı olduğu haqda sənədlər də, bütün o göstəricilər də saxlanılsın.

Mən niyə bu məsələni qoydum? Bu gün Ermənistanda Azərbaycandan guya ki, qovulmuş, erməniləri birləşdirən erməni qaçqınları assambleyası yaradılıb. Əslində, bilirik, artıq faktlarla, məhkəmə ilə təsdiq olunub ki, 1988-ci ildə SSRİ “KQB”-si tərəfindən Sumqayıtda qırğın törədilməsindən qabaq da, 20 yanvar qırğınına hazırlıq üçün də ermənilər çıxarıldılar və qorunmaq məqsədilə Ermənistana aparıldılar. Onlar 2011-ci ildə də bir qurultay keçirmiş və 2016-cı ildə də çıxış etmişlər. Onlar nədən danışırlar? Bu adamların Azərbaycana qaytarılmasından. Hətta bəzi yerlərdə artıq bunları yerləşdirirlər. Qubadlının Xanlıq kəndində 2014-cü ildə 200 nəfər erməni yerləşdirilmişdisə, 2018-ci ildə bunların sayı artıq 600-ə qalxıb. Kəlbə-

cərdə yeni bir qəsəbə salmaq istəyirlər. Qubadlı ərazisində hətta yüz minlik Baqaran şəhərciyi salmaq istəyirlər. Deyilə bilər ki, ermənilərin belə maddi imkanları yoxdur. Hətta onlar elə bir müddəa qaldırıblar, – mən yeni tanış oldum, bilmirəm, nə qədər doğrudur, – BP-nin erməni qaçqınları qarşısında bir öhdəliyi varmış və 20 milyard dram miqdarında da pul verməliymişlər. Hətta bu vəsaiti oraya yatırmaq istəyirlər. Başqa ərazilərimizə də adamlarını yerləşdirirlər. Gələcəkdə ərazilərimizi qaytarmamaq üçün hüquqi əsas qoymaq istəyirlər ki, bunlar Azərbaycan vətəndaşlarıdırlar. Bu yaxınlarda "Dağlıq Qarabağın"ın vitse-prezidenti də iddialarla çıxış elədi ki, nəinki Dağlıq Qarabağ, ətraf rayonlar da bizimdir. Hətta Naxçıvana da iddia elədi.

Belə bir siyasi, soyuq savaş dönəmində bizim Qərbi Azərbaycandan qovulmuş, çıxarılmış, öldürülmüş və bəziləri də girov götürülmüş minlərlə insanın taleyindən xəbərimiz yoxdur. Bir qismini, bilirik ki, Kəlbəcərin qızıl mədənlərində saxlayıb işlədirlər. Belə bir vəziyyətdə hesab edirəm, biz həmin adamlarla bağlı qanun layihəsinə xüsusi bir müddəa əlavə eləməliyik ki, Ermənistandan qovulmuş insanlara bu hallar üçün indi bütün vətəndaşlara aid olan hüquqlar verilir, amma bunlar Ermənistan vətəndaşlarıdır. Dövrün trendinə görə davranmaq lazımdır. Qanunlar hər dövrə uyğun olaraq müəyyən qədər təkmilləşdirilir, bu normal bir şeydir. Mən bu dəyişikliklərin olmasına razıyam. Amma bu müddəanın salınmasını istəyirəm.

Almaniyada 1949-cu ildə ilk kansler Adenauer konstitusiyaya bir müddəa saldırdı ki, Almaniyanın şərqi qərbindən müvəqqəti olaraq ayrılıbdır. AFR-i yaradan 3 dövlət nə qədər etiraz etsə də, bunu reallaşdırdı və Almaniya birləşəndən sonra bu gün konstitusiyada o müddəa yoxdur.

Biz də bu qanuna o müddəanı daxil eləyə bilərik ki, bizim Ermənistandan qovulmuş əhalimiz həm bugünkü siyasi məsələlərdə ciddi şəkildə hökumətin apardığı siyasətə dəstək versin, həm də sabah qayıtmaq reallığı yarananda bu məsələlərdən istifadə edə bilək. Ona görə xahiş edirəm ki, bu məsələ nəzərə alınsın. Mən demirəm, bəlkə indiki halda, bu gün burada olmayacaq, nə formada qəbul olunacaq, amma mən çox xahiş edirəm ki, bu məsələ nəzərə alınsın. Belə bir müddəanın həmin qanun dəyişikliyinə daxil edilməsi təmin edilsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.31 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə,** *Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri.*

Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Vergi Məcəlləsində, eləcə də Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri cənab Prezident tərəfindən bir məktubda göndərilib. Eyni dəyişikliklərdir. Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi Milli

Məclisin plenar iclasında ikinci oxunuşda müzakirə edilərkən ona hər hansı bir əlavənin edilməsi barədə təklif daxil olmamışdır. Onun lehinə səs verməyinizi xahiş edirəm. 8-ci məsələ də bir məktubda gəlib. Ona görə hər iki qanun layihəsinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, 7-ci məsələyə, Vergi Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.33 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Mülki Məcəllədə dəyişikliklər edilməsi haqqında qanun layihəsi, üçüncü oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, 10-cu məsələ də, "Banklar haqqında" Qanun da bir məktubda gəlmişdi. Hər iki qanun layihəsinə plenar iclasda dəyişiklik edilməmişdir. Ona görə də millət vəkillərindən bu qanun layihələrinə də səs verməlerini xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.34 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs verMədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Banklar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə, üçüncü oxunuş. Münasibət bildirin, xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 12.35 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikası Mülki Məcəlləsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Hörmətli Ziyafət müəllim, bu layihə ipoteka kreditləşdirməsinin bütün mərhələlərdə daha şəffaf həyata keçirilməsi və bütün prosedurların, notarius da daxil olmaqla elektron qaydada yerinə yetirilməsini nəzərdə tuturdu. İkinci oxunuş zamanı hörmətli millət vəkilləri layihəni dəstəkləyiblər. Üçüncü oxunuşda səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, Mülki Məcəllədə dəyişikliklər edilməsi barədə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.36 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İpoteka haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri. Artıq Əli müəllim bu barədə danışdı, çünki həm 11-ci məsələ, həm də 12-ci məsələ cənab Prezidentin bir məktubunda daxil olub, eyni dəyişiklikdir. Ona görə də millət vəkillərindən xahiş edirəm, qanun layihəsinə səs versinlər.

**Sədrlik edən.** Qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.37 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Lotereyalar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, “Lotereyalar haqqında” Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsinin 4.1-ci bəndi təkmilləşdi. Yəni vaxtı ilə tiraj komissiyasının üzvlərinin sayının 5-dən 3-ə endirilməsi təklif edilirdi. Hörmətli Səfa müəllim qanun layihəsinin təşəbbüsçüsü ilə danışıb, həmin müddəa qüvvədə qalır. Yəni tiraj komissiyasının üzvlərinin sayı dəyişilmir, əvvəlki qanunda olduğu kimi, 5 nəfərdən ibarət olur. Bu artıq razılaşdırılıb. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.39 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 1 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanunun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Hörmətli Ziyafət müəllim, həm Cinayət Məcəlləsində, həm də İnzibati Xətalar Məcəlləsində oxşar dəyişikliklərdir. Eyni qəbildən olan məsələni tənzimləyir. İcazə versəniz, məlumat verərdim. Deməli, yerin təkinin qorunması və istifadəsi qaydalarını pozmaqla bağlı həm Cinayət Məcəlləsində, həm də İnzibati Xətalar Məcəlləsində sanksiyalar sərtləşdirilir. İkinci oxunuşdakı müzakirə zamanı hörmətli həmkarlarımız bu məsələni müdafiə etdilər. Çünki Azərbaycan həm də neft-qaz ölkəsidir, bu qəbildən olan pozuntular da baş verir. Üçüncü oxunuşda səsə qoymağınızı xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.40 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.41 dəq.) |
|---|---|
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, ikinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Çox sağ olun. Bu əlavə inzibati orqanlar arasında məhkəmə mübahisəsi zamanı səlahiyyət məsələlərini həll edir. İkinci oxunuş zamanı əlavə və təkliflər daxil olmamışdı. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 12.42 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli**. Çox sağ olun. İkinci oxunuş zamanı bu

məsələ ilə bağlı təkliflər daxil olmamışdı. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.43 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bilirsiniz ki, artıq sentyabr ayından yeni nəsil şəxsiyyət vəsiqələrinin verilməsi prosesi başlayıb. Mən elə həmkarlara, bizim vətəndaşlara tövsiyə edərdim ki, bu mexanizmdən artıq istifadə edə bilərlər. Avropa İttifaqı standartlarına tam cavab verən yeni nəsil şəxsiyyət vəsiqələridir. Burada təklif olunan düzəliş isə ancaq 15 yaşı tamam olmamış şəxslərin əl-barmaq izlərinin götürülmə proseduru ilə bağlıdır. Üçüncü oxunuşda səs verilməsini xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.44 dəq.) |
|---|---|
| Lehinə | 99 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Pasportlar haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. “Pasportlar haqqında” Qanun ilə bağlı müzakirələr zamanı diplomatik pasport verilən şəxslərin siyahısının daha da genişlənməsi ilə bağlı təklif daxil olmuşdu. Keçən dəfə də məlumat verdim. Bu barədə digər qanunvericilik təşəbbüsü subyektləri ilə müzakirə apardılar, amma millət vəkilləri tərəfindən indi təklif olunan layihə dəstəklənmişdi. Üçüncü oxunuşda səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.46 dəq.) |
|---|---|
| Lehinə | 101 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli**. Bu layihəyə uyğunlaşdırma xarakteri

daşıyırdı. Ona görə üçüncü oxunuşda da səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.47 dəq.) |
|---|---|
| Lehinə | 100 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 100 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. 21, 22, 23-cü məsələlər üzvi surətdə bir-biri ilə bağlıdır. İnzibati Xətalar Məcəlləsində dəyişiklik sonrakı qanunların tələbindən irəli gəlir. Belə ki, qəbiristanlıqların idarə olunması haqqında qanunvericiliyin pozulmasına görə cərimə formasında məsuliyyət nəzərdə tutulmalıdır. Qaydalar isə, bilirsiniz ki, Nazirlər Kabineti tərəfindən təsdiq olunur. Hesab edirəm ki, bu inzibati xətaya görə cərimə sanksiyaları da adekvatdır. Hər hansı təklif də daxil olmamışdır. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.48 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 1 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Arif müəllim, buyurun.

**A.Rəhimzadə,** *Milli Məclisin Regional məsələlər komitəsinin sədri.*

Sağ olun, Ziyafət müəllim. Əli müəllim dedi, demək, bələdiyyələrə əlavə səlahiyyətlər veriblər və o qaydaların pozulmasına görə İnzibati Xətalar Məcəlləsinə uyğun olaraq müəyyən cəzalar müəyyələşdirilibdir. Bu məsələ “Bələdiyyələrin statusu haqqında” Qanunda öz əksini tapır. Söhbət bundan gedir. Birinci və ikinci oxunuş zamanı buna heç bir əlavə və ya tənqidi qeyd olmayıbdır. Xahiş edirəm, səsverməyə qoyaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Buyurun, “Bələdiyyələrin statusu haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi haqqında qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.49 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Bələdiyyələrin maliyyəsinin əsasları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə üçüncü oxunuşda münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.50 dəq.) |
| Lehinə | 98 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Uşaqların zərərli informasiyadan qorunması haqqında Azərbaycan Respublikası qanununun layihəsi, üçüncü oxunuş. Buyurun, Aqiyə xanım.

**A.Naxçıvanlı,** *Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri.*

Çox sağ olun, Ziyafət müəllim. Hörmətli həmkarlar, Uşaqların zərərli informasiyadan qorunması haqqında qanun layihəsi Milli Məclisin iclaslarında birinci və ikinci oxunuşlarda ətraflı müzakirə olunmuşdu. Həmkarlarımızın bəzi təklifləri nəzərə alınmaqla, qanun layihəsi üçüncü oxunuşa tövsiyə olunmuşdur. Səsə qoyulmasını xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 12.51 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emomali Rahmonun Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi. Səməd müəllim, buyurun.

**S.Seyidov,** *Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri.*

Çox sağ olun, Ziyafət müəllim. Azərbaycan Respublikası Konstitusiyasının 96-cı maddəsini, 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Tacikistan Respublikasının Prezidenti Emomali Rahmonun Birgə Bəyanatının təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsini biz komitədə müzakirə etmişik. Bütün Azərbaycan–Tacikistan əlaqələrini özündə ehtiva edən və Azərbaycanın maraqlarına tam uyğun gələn bəyannamədir. Millət vəkillərindən xahiş edirəm, buna müsbət fikirlərini bildirsinlər. Çox sağ olun.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 12.53 dəq.) |
|---|---|
| Lehinə | 97 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ “Dövlət sirri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsidir.

İcazənizlə, bu barədə mən sizə məlumat verim. Bu qanun layihəsinin mahiyyəti nədən ibarətdir? Bilirsiniz ki, hazırda qüvvədə olan “Dövlət sirri haqqında” Qanuna görə dövlət sirrinin qorunması məsələsi məhkəmə və prokurorluq orqanlarında təşkil olunur. Hazırda möhtərəm cənab Prezident təklif edir ki, bu orqanların sayı, siyahısı genişləndirilsin və bura “habelə müvafiq icra hakimiyyəti orqanlarında” ifadəsi əlavə olunsun. Yəni dövlət sirrinin mühafizəsi ilə bağlı dövlət orqanlarının siyahısı genişləndirilir. Mahiyyət bundan ibarətdir. Çıxış etmək istəyən varmı? Buyurun, Zahid müəllim.

**Z.Oruc.** Hörmətli Ziyafət müəllim, çox təşəkkür edirəm. Yəni təqdim olunan dəyişiklik, əlbəttə ki, heç bir mübahisə doğura bilməz. Biz ən azı ona şahidlik edirik ki, on illər ərzində dövlət idarəetmə fəaliyyətinin həyata keçirilməsi zamanı müxtəlif hakimiyyət qollarının içərisində idarəetmə işləri ilə bağlı müxtəlif xarakterli dövlət sirləri olur və dövlət hakimiyyəti, yerli özünüidarə orqanlarında, yaxud Milli Məclisin Aparatında, məhkəmə, prokurorluq orqanlarında bu sirlər qorunmalıdır və qorunur. Eləcə də biz ona da şahidik ki, nəinki sirlərin qorunması, bu sahədə çalışan insanlar qarşısında, Milli Məclisi çıxmaq şərti ilə, yerdə qalan bütün orqanlarda dövlətin siyasi xəttini müdafiə etmək də bir nömrəli vəzifə kimi dayanır. Niyə mən Milli Məclisi istisna edirəm? Çünki bu xalqdan gələn, yəni xalqın iradəsini təmsil edən bir qurum kimi seçkili təsisatdır və burada müxtəlif mövqelər, fikirlər var. Hakim kursdan fərqli rəylər

mövcuddur və bu, demokratiyanın atributudur, bir hissəsidir. Ancaq mən niyə bu barədə danışmaq istədim, hörmətli Ziyafət müəllim? Çox sağ olun ki, şərait yaradırsınız.

Bu on illər ərzində biz informasiya məkanında olan hər bir xəbəri bura daşımamaq mövqeyində olmuşuq. Əlbəttə, əgər prinsipial önəm daşıyırsa, dövlət mənafeyinə bu və ya digər formada təsir göstərən məsələdirsə, istisnalar ola bilər. Bu yaxınlarda diqqətimi bir xəbər çəkdi. Sabiq millət vəkillərindən biri diskussiyada, debatda olduğu bir insana bəyan edir ki, 2003-cü ilin hadisələri necə baş verib və bildirir ki, bir neçə tanınmış şəxs Tamerlan Qarayevi yanına dəvət edib, İsa Qəmbərin qarşıdakı seçkidə müdafiəsi ilə əlaqədar ondan müəyyən xahişlərdə bulunublar. Bu razılaşmaya görə Tamerlan Qarayev o xahişləri yerinə yetirəcəyi təqdirdə, onların gələcəkdə xəyali hakimiyyət arzularında Konstitusiya Məhkəməsinin sədri olacaqmış. Mən, doğrusu, bu məlumatı oxuyanda düşündüm ki, bu sıradan bir bəyanatdırsa, həmin şəxs tərəfindən reaksiya verilməli, bildirilməli idi. Biz o dövrün hadisələrini yaxşı bilirik. Kimin kimə birləşməsi, ayrılması, müxalif qüvvələrin bir araya gəlməsi Azərbaycan cəmiyyətində heç bir, nə siyasi dəyişikliklər yaratmır, nə də hakimiyyətin taleyinə təsir etmir. Amma Tamerlan Qarayev səfir olaraq bu gün çalışmaqdadır. Doğrusu, mən bir daha bu informasiyanı burada deyəcəyimi nəzərə alıb, 2001–2003-cü illərdə o, vəzifə tuturdumu deyə, bir də baxdım. Gördüm ki, Çində səfir olduqdan sonra, görünür, aralıq dövr üçün yenə də eyni diplomatik ranqda qalıbdır. Mən bu tribunadan ona şəxsi münasibətimi ifadə etmək istəmirəm. Bu ayrı bir söhbətin mövzusudur. Ancaq səfir diplomatik ranq daşıyıcısı kimi, dövlət sirlərini qorumağa, eyni zamanda, dövlət başçısını, dövlətin yürütdüyü siyasəti

can-dildən müdafiə etməyə borcludur. Kimin isə özəl niyyəti varsa, siyasi partiya yaratmaq, başqa bir şəxsi müdafiə etmək istəyirsə, hazirkı hakimiyyətin mövqeyi ilə razılaşmırsa, gedib, məsələn, Arif Məmmədovun və ya başqasının yanında yer ala bilər. Bununla zatən hakimiyyətin gücündə heç nə dəyişməz. Ancaq bu məsələyə bu tribunadan reaksiya bildirməklə mən istəyirəm ki, Tamerlan Qarayev də yəqin, informasiya məkanına çıxacaq, bu xəbərə reaksiyasını bildirsin.

İkinci. Ziyafət müəllim, o diplomatik xidmətə verilən töhfəyə görə medalın təsis edilməsi qanun layihəsi ilə bağlı məsələdə istədim bunları da deyəm. Bu gün Ukraynada səfir olan şəxs ilə bizim sabiq səfir Tələt Əliyev arasında düz bir aydan artıqdır, mediada dartışma davam edir. Mövzu nədir? Səfirliyin binası təmir olunanda yeyintiyə yol verilib, yoxsa, yox? Ay qardaş, bu məsələ Azərbaycanın səlahiyyətində olan bir problemdir. Ukrayna prokurorluğuna müraciət edilməsi, sabiq səfirlə indiki səfir arasında olan bu polemika Ukraynada Azərbaycanın mövqeyinə təsir edir. Azərbaycanın diplomatik məkanı bu illər ərzində Prezident İlham Əliyevin və ulu öndər Heydər Əliyevin sayəsində qurulub, formalaşıb. Kim isə bu məsələ ətrafında polemika açmaq istəyir, gizli bir məktubla Azərbaycan Prokurorluğuna, hakimiyyət orqanlarına müraciət etsin. Bu məsələ ətrafında polemika mediaya çıxarıla, ictimailəşə bilməz. Onların buna ixtiyarı yoxdur. Məsələni araşdıra bilər ki, yeyinti olub, yoxsa, yox?

Ziyafət müəllim, çox var olun, çox təşəkkür edirəm ki, bu məsələni deməyə mənə imkan yaratdınız. Bu dəyişikliyə səs verəcəyəm, çox sağ olun.

**Sədrlik edən.** Rüfət Quliyev.

**R.Quliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Mən elə

Zahid müəllimin çıxışına reaksiya verirəm. Mənə dünən axşamdan və bu gün Ukraynadan çoxlu zənglər gəlib. Sabah mətbuat konfransı keçiriləcək və o konfransda Azərbaycanın sabiq səfiri ilə indiki səfiri arasında nəyə görə müəyyən problemlərin olması üzə çıxacaq. Nəyə görə başqa dövlətin, başqa xalqın nümayəndələri bunu eşitməlidir? Mən də onun tərəfdarıyam ki, elə məsələlər qapalı formada, yəni Azərbaycan hüquq mühafizə orqanları vasitəsi ilə, Azərbaycanın öz gücü ilə həll olunmalıdır. Bununla tam razıyam. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.00 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörməti Ziyafət müəllim, hörmətli millət vəkilləri. “Avtomobil yolları haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə təqdim edilən qanun layihəsi “Hərbi vəziyyət haqqında” 2017-ci il 14 fevral tarixli Qanunun və “Yol hərəkəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə” 2018-ci il 1 may tarixli Qanunun

tətbiqi ilə əlaqədar olaraq hazırlanmışdır və yol təsərrüfatı orqanları tərəfindən hərbi vəziyyət rejiminin tətbiqi barədə avtomobil yollarından istifadə edənlərə qabaqcadan məlumat verilməsini nəzərdə tutur. Ona görə də millət vəkillərindən bu dəyişikliklərə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi. Arif müəllim, buyurun.

**A.Rəhimzadə.** Sağ olun, Ziyafət müəllim. Bələdiyyələrin büdcəsini təşkil edən əsas mənbələrdən biri yerli vergilər və ödənişlərdir, daha doğrusu, torpaq və əmlak vergisidir. Mövcud qanunvericiliyə görə, bunu müəyyən etmək üçün onların sahəsi bilinməlidir. Ancaq bələdiyyələr bunu müəyyən edə bilmirdilər. Bu ilin oktyabr ayında qanuna edilən dəyişiklikdə nəzərdə tutulur ki, bələdiyyələr bu məsələ ilə əlaqədar bilavasitə reyestrə müraciət edə bilərlər. Qanunda nəzərdə tutulurdu ki, onun qaydaları müvafiq icra orqanı tərəfindən hazırlansın və artıq Nazirlər Kabineti tərəfindən bu qaydalar hazırlanıbdır. Onun müddəti,

müraciət qaydası və ödəniş məsələləri hamısı orada öz əksini tapıbdır.

Müzakirənizə təklif olunan qanun layihəsində nəzərdə tutulur ki, vergitutma obyektinin müəyyən edilməsi məqsədi ilə bələdiyyələr birbaşa yazılı, ya elektron formada reyestrə müraciət edə bilərlər. Eyni zamanda, qanunun 5.4-cü maddəsinə məlumat almaq üçün necə, hara müraciət etmək, nə etmək lazım olduğu müəyyən edilirdi. Bu maddə artıq öz mənasını itirir. Odur ki, sizin müzakirənizə təqdim olunan qanunda nəzərdə tutulur ki, 5.4-cü maddə, ümumiyyətlə, çıxarılsın və 5.3-cü maddə yeni redaksiyada verilsin: "Bu Qanunun 8.0.1 və 8.0.2-ci maddələrində nəzərdə tutulmuş, – bu maddələrdə torpaq vergisi və daşınmaz əmlak vergisi nəzərdə tutulur, – vergilərin yığılması üçün bələdiyyələr ərazilərində yerləşən vergitutma obyektlərinin müəyyən edilməsi məqsədi ilə daşınmaz əmlakın dövlət reyestrindən qanunla müəyyənləşdirilmiş qaydada məlumat ala bilərlər".

Bu, bələdiyyələrin büdcəsini doldurmaq üçün çox yaxşı bir vasitədir. Cənab Prezidentin təşəbbüsü ilə bu təklif verilibdir. Mən hesab edirəm ki, biz hamımız bunu dəstəkləməliyik. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsi ilə bağlı Fazil Mustafa çıxış etmək istəyir.

**F.Mustafa.** Hörmətli Ziyafət müəllim, burada bələdiyyələrin, əslində, hüquqlarının genişləndirilməsindən çox, məhdudlaşdırılmasından söhbət gedir. Çünki bələdiyyələr öz ərazilərində olan tikililərə və onların hissələrinə əmlak vergisi hesablamaq məqsədi ilə mütəmadi olaraq vergiqoyma məqsədləri üçün qiymətləndirmə barədə qərar qəbul edirlər. Yerli şəraiti də daha dəqiq qiymətləndirə bilirlər. Təbii ki, müvafiq icra hakimiyyəti orqanı tərəfindən

dövlət reyestrindən qanunla müəyyənləşmiş qaydada məlumat almaq və başqa məsələlər normaldır.

Burada həm də vətəndaşın hüquqlarını müəyyən dərəcədə məhdudlaşdıran addım atılır. Bu da əmlakın dəyərinin fiziki şəxsin təşəbbüsü ilə onun hesabına müstəqil peşəkar qiymətləndirmə tərəfindən hesablanmasıdır. Bunun nəyi pisdir? Vətəndaş əgər bu qiymətlə, qiymətin obyektivliyi ilə, verginin səviyyəsi ilə razı deyilsə, bunun özü tərəfindən qiymətləndirilməsi imkanı tanınmalıdır. Əgər bu imkan bu reallığa uyğun olmasa, onda bunu mübahisələndirmək üçün məhkəməyə müraciət etmək hüququ bələdiyyədə qalır.

Bir də, burada digər məsələ var, vacib məsələlərdən biridir. Molla Nəsrəddinin bir misalında olduğu kimi, kişmiş yemək istəyəndə barmağını uzadır satıcının gözünə ki, sənin gözün görür, bunu niyə yemirsən? O, sadəcə, satıcıdır. Bizdə bələdiyyəyə pul qazandırmaq üçün kifayət qədər böyük imkanlar var. Amma biz bu imkanlardan gözümüz görə-görə istifadə etmirik və imtina edirik. Neçə illərdir bu imkanlar qalıb. Məsələn, yeni çoxmərtəbəli binalarda tikilmiş evlərlə bağlı bir neçə dəfə bu məsələyə toxunmuşuq. İndi bələdiyyələr ora arayış, tələb göndərirlər ki, siz əmlak vergisinə görə bu pulu ödəyin. Binalarda vətəndaşa mülkiyyət hüququ verilmədiyinə görə, bina bu və ya digər səbəbdən təhvil alınmadığına görə, 5 il, 10 il, 15 il yaşayan vətəndaş bələdiyyəyə o pulu ödəmir. Torpaq vergisi ödənir, amma əmlak vergisi olaraq heç nə ödənmir. Halbuki, bu məsələ öz həllini tapsa, yeni yaşayış mənzillərinin hamısına mülkiyyət hüququ verilsə, problem qısa müddətdə aradan qalxar. Binanı sonra kimsə təhvil alar, almaz, bu bina sahibi ilə müvafiq icra orqanı arasında olan problemdir.

Vətəndaş yaşayırsa, vətəndaş orada mülkiyyətçi hesab olunur və pulu da axıra qədər ödəyirsə və heç bir borcu qalmayıbsa, ona hansı əsasla mülkiyyət kağızı, sənədi verilmir? Bunun məntiqi izahı yoxdur. Özümüz də, başqaları da, burada iştirak edən insanlar da, hamısı bu problemlə rastlaşır. Ona görə də ən rahat yolu odur ki, əgər istəyiriksə, bələdiyyənin imkanı genişlənsin, bu sənədlər, mülkiyyət sənədləri bütün mənzillərdə, binalarda yaşayanlara verilsin. Artıq o binalar sökülməyəcək ki, şəhərin mərkəzində ən yaxşı yerlərdədir. Amma bina təhvil alınmadığına görə 10 il də, 15 il də, 100 il də yaşasan, sənə mülkiyyət hüququnu təsdiqləyən sənəd verilməyəcək. Ona görə bu məsələnin üzərində artıq son dəfə durulmalıdır. Əgər istəyiriksə, bələdiyyələr dirçəlsinlər, pul qazansınlar, bu sənədi verin, vəssalam. Bələdiyyəyə ildə təsəvvür edin, hər mənzilin sahibi, heç olmasa, 100 manat, 150 manat, 200 manat ödəsə, nə qədər böyük vəsait edir. Çox sayda bu cür məskunlaşan insanlar var və əmlak vergisini də ödəməlidirlər. Bu məsələ son vaxtlarda mətbuatda da müzakirə edilib. Bələdiyyələrin mülkiyyət hüququ, onu təsdiqləyən sənəd olmadan qanunsuz şəkildə vətəndaşdan vəsait tələb etməsi çox vaxt vətəndaşın hansısa şəkildə təzyiq altında qalmasına səbəb olur. Vətəndaş nə etsin? Mənzilin pulunu ödəmişəmsə, mənim mülkiyyət hüququmu təsdiq edən sənəd verilsin və mən də bələdiyyəyə əmlak vergisi ödəyim.

Alğı-satqı prosesində vətəndaş nə ilə qarşılaşır? Deyək ki, sənədin yoxdur, məcbursan, adını o biri dəftərə qeyd etdirmək üçün bina sahibinə 2 min, 3 min manat da verməlisən. Niyə? Bu pul keçsin dövlətə də. Dövlət bundan xeyir götürsün. Ona görə adam təəccüb qalır ki, özümüz görə-görə qurumların dirçəlməsi üçün o vəsaitdən imtina

edirik. Yaxud 500 mindən artıq evlərin özəlləşməsi məsələsi, onu da həll etmək lazımdır. Artıq bu insanlar yaşayır, o evləri sökə bilməyəcəksiniz, yaxud onları harasa yola sala bilməyəcəksiniz. Bu evdə yaşayır, artıq tikilibdir. Bu evlər neft kəmərləri üstündə deyilsə, dəmir yolu xəttinə yaxın deyilsə, başqa məsələlər yoxdursa, bunu həll etmək, özəlləşdirmək lazımdır. Ondan da dövlət büdcəsinə kifayət qədər vəsait daxil olsun. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Arif müəllim, münasibət bildirmək istəyirsiniz? Buyurun.

**A.Rəhimzadə.** Fazil müəllimin dediyi məsələ, həqiqətən, var və o məsələ həll olunsa, bələdiyyələrə çox böyük kömək olardı. Ancaq məsələ burasındadır ki, vergi əmlakdan verilir, istifadədə olan maldan vergi verilmir. Odur ki, məsələni belə qoymaq olmaz ki, pulunu veribdir. Pulunu verib, ancaq bunun sübutu odur ki, reyestrdən çıxarışı olmalıdır. Burada böyük çətinliklər var. Əlbəttə, bu məsələ ilə əlaqədar prosesləri tezləşdirmək lazımdır. Həqiqətən, bu məsələ tez həll olunsa, bələdiyyələrin büdcəsinə böyük vəsait gələ bilər. Ancaq hazırda bu, burada yaşayıbsa, pulunu veribsə, pulunu verib-verməyib, o da hələ məlum deyil. Son sənəd reyestr olmalıdır.

O ki qaldı Fazil müəllimin qaldırdığı birinci məsələyə, 5.4-cü maddənin çıxarılmasının bələdiyyələr tərəfindən əhalinin hüquqlarının pozulmasına səbəb olması, məsələ belə deyil. Təcrübə göstərdi ki, uzun müddət ərzində bələdiyyələr müəyyən edə bilmirlər ki, əmlakın sahəsi nə qədərdir. Bununla bağlı ölkədə fəaliyyət göstərən orqan reyestrdir. Bu məsələ reyestr vasitəsi ilə həll olunur. Bələdiyyə üzvləri gedir, müraciət edirlər. Ev sahibləri heç yaxın durmaq istəmirlər, qapını açmırlar. Elə hallar da var. Odur ki, mən hesab edirəm, bu düzəliş, həqiqətən, bələ-

diyyələrin büdcələrinin formalaşması üçün çox yaxşı bir vasitə olacaqdır. Sağ olun, xahiş edirəm, səs verəsiniz.

**Sədrlik edən.** Sağ olun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.13 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində və Cəzaların İcrası Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu layihə uyğunlaşdırma xarakterlidir. Belə ki, "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Qanunun müddəaları, eyni zamanda, Mülki Prosessual Məcəlləsində öz əksini tapır. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.14 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun. Bu layihə də uyğunlaşdırma xarakterlidir. Belə ki, qəbul etdiyimiz və qüvvədə olan Cinayət-Prosessual Məcəlləyə 2018-ci il 29 iyun tarixli əlavələr olmuşdu. Bu, məhkəmə qərarı vasitəsi ilə cəzanın digər cəza növü ilə əvəz edilməsi, habelə şərti məhkum etmənin, cəzadan şərti olaraq vaxtından əvvəl azad etmənin prosessual əsasları ilə bağlı idi. Təklif olunan layihə həmin müddəaların “Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında” Qanunda da öz əksini tapmasını ehtiva edir. Uyğunlaşdırma xarakterlidir, səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, münasibət bildirin qanun layihəsinə.

| **Səsvermənin nəticələri** | (saat 13.15 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Ədliyyə orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Fövqəladə hallar orqanlarında xidmət keçmə haqqında” Azərbaycan Respublikası qanunlarında və Azərbaycan Respubli-

kasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Siz orqanların adını çəkdiniz. Onlar dövlət qulluğunun xüsusi növüdür. Ayrıca qanunla həmin orqanlarda xidmət keçmə müəyyən edilir. Amma əsas qanun, baza qanunu "Dövlət qulluğu haqqında" Qanundur. Bu dəyişikliyin də əsas məqsədi məhz ondan ibarətdir ki, "Dövlət qulluğu haqqında" Qanunun dövlət qulluqçularının şəxsi işlərinin aparılması ilə bağlı müddəalar nəzərdə tutan 15-ci maddəsi adı çəkilən qurumlara da birbaşa şamil olunur. Yəni elə hallar var ki, o qanunun özündədir, amma ümumi prinsip olaraq "Dövlət qulluğu haqqında" Qanunun ümumi müddəaları, ümumi prinsipləri təbii ki, bütün digər dövlət qulluğuna, yəni xüsusi dövlət qulluğuna da aiddir. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.17 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının 1999-cu il 7 dekabr tarixli Qanunu ilə təsdiq edilmiş "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"də, 2001-ci il 12 iyun tarixli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haq-

qında Əsasnamə”də, 2001-ci il 29 iyun tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamə”də və 2009-cu il 4 dekabr tarixli qanunu ilə təsdiq edilmiş “Miqrasiya orqanlarında qulluq keçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə qanun layihəsi. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! “Gömrük orqanlarında xidmət haqqında Əsasnamə”nin 2-ci maddəsinin ikinci hissəsinə “müddəaları” sözündən sonra “həmçinin həmin qanunun 15.1-ci maddəsi” sözləri əlavə edilir. “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”yə aşağıdakı məzmunda 5.1-ci maddə əlavə edilir: “Vergi orqanlarının vəzifəli şəxslərinin şəxsi işinin aparılması qaydası “Dövlət qulluğu haqqında” Azərbaycan Respublikası Qanununun 15.1-ci maddəsi nəzərə alınmaqla müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir”. Ona görə millət vəkillərindən xahiş edərdim ki, bu dəyişikliklərə müsbət münasibət bildirsinlər.

**Sədrlik edən.** Çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, onda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.19 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Vəkillər və vəkillik fəaliyyəti haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Bu məsələ ilə bağlı müzakirələrdə də hansısa xüsusi təkliflər daxil olmamışdı. Millət vəkillərindən səs verməl追ini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Bu qanun layihəsi ikinci oxunuşda müzakirə edilir. Ona görə də biz müzakirələrə keçməzdən əvvəl qanun layihəsini əsas kimi qəbul etməliyik. Buyurun, xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.21 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Buyurun, Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Hörmətli millət vəkilləri, media nümayəndələri! Burada mənim təklifim ondan ibarətdir ki, qanunda “ölmüş zərərçəkmiş şəxs” terminini, hesab edirəm, biz düzgün işlətmirik. Vaxtı ilə bu məsələ komitədə də müzakirə olunanda, Ziyafət müəllim, mən fikrimi bildirmişdim. Zərərçəkmiş şəxs hüquq və vəzifələri olan proses iştirakçısıdır. Bu canlı şəxsdir. Buna görə ölmüş zərərçəkmiş şəxs ola

bilməz. Əgər  cinayətin qurbanı ölürsə, o halda onun yaxın qohumları, yaxud hüquqi varisi zərərçəkmiş şəxs kimi tanınır. Artıq zərərçəkmiş şəxs, yenə də deyirəm, hüquq və vəzifələri olan proses iştirakçısıdır. Ona görə də burada, hesab edirəm ki, cümlə belə başlanmalıdır: "Zərərçəkmiş şəxs ölərsə, onun hüquqi varisi kimi, yaxud hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi də məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla, Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin edilir".

Bu halda fikir daha aydın olur. Yenə də söyləyirəm ki, əgər  cinayətin  qurbanı ölürsə, o zərərçəkmiş şəxs kimi tanınmır. Ona görə də, ölmüş zərərçəkmiş şəxs deyə bilmərik. Cinayətin qurbanı ölürsə, onun yaxınları zərərçəkmiş şəxs kimi tanınır. Ona görə "ölmüş zərərçəkmiş şəxs" ifadəsinin əvəzinə "zərərçəkmiş şəxs ölərsə, onun hüquqi varisi kimi" fikri ifadə olunsun. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Ziyafət müəllim. Mən də bu qanun layihəsinə səs verəcəyəm. Amma qeyd etmək istərdim ki, biz vəkillər və vəkillik fəaliyyəti haqqında kifayət qədər qanuni baza formalaşdırmışıq. Artıq məlumdur ki, vəkillərin yenidən seçilməsi, onların qanunun tələblərinə uyğun şəkildə fəaliyyəti, qanunla qarşılarında qoyulan vəzifələr nədən ibarətdir, kimlər vəkil seçilə bilər? Yaxud bunun əmək fəaliyyəti nədən ibarət olmalıdır, bunlar var. Lakin xatırlayırsınızsa, biz nümayəndəlikləri ləğv etdikdən sonra bu gün vəkilliyin özünə, vəkillik institutuna böyük ehtiyac yaranıbdır. Mənə elə gəlir ki, biz qanunlarımızda bir az da sadələşdirmə

aparmalıyıq ki, o insanların, xüsusilə də vəkilliyə üz tutan gənclərin vəkillik fəaliyyəti ilə məşğul olmalarına imkan yaradaq. Onlar vəkil kimi, nümayəndə kimi prosesə cəlb olunduqdan sonra tədricən püxtələşib, gələcəkdə tanınmış, ümumi işi apara bilən vəkillik sistemində yaxşı kadrlar kimi formalaşan şəxslər olsunlar.

İkincisi, vəkillərin biliklərinin təkmilləşdirilməsi üçün keçmişdə institutlar mövcud idi, indi artıq bunların böyük əksəriyyəti yoxdur. Yəni biz mütəmadi olaraq qanunlarda dəyişiklik aparırıq. Elə olur ki, İnzibati Xətalar Məcəlləsinə biz hər iclasda müxtəlif sahələrlə bağlı dəyişiklik edirik, yaxud Əmək Məcəlləsinə, Mülki Məcəlləyə. Bu dəyişiklər edildikcə mütəmadi olaraq vəkilləri yığıb, heç olmasa, 2 aydan, 3 aydan bir olan dəyişiklikləri, düzəlişləri onlara çatdırmalıyıq. Bu məqsədlə Milli Məclisin məlumat bazasından da istifadə etmək olar. Kurslar keçirilməlidir ki, onların qanunvericilikdə baş verən dəyişikliklərdən, heç olmasa, məlumatı olsun. Çoxu, görürsən ki, elə köhnə prosedur qaydanı bilir, amma qanunda nələr dəyişib, məlumatı yoxdur. O baxımdan da, mən hesab edirəm ki, biz həm ictimaiyyətin, həm televiziyanın imkanlarından, həm də internet resurslarından istifadə etməklə onların hərtərəfli maarifləndirilməsinə diqqət göstərməliyik.

Keçən dəfə qaldırdığım bir məsələyə yenə də toxunmaq istəyirəm. Cəmiyyətdə də bəllidir, insanlar arasında da bu söhbətlər gedir. Elə insanlar var ki, ayrı-ayrı hallara, rüşvətə görə, vəzifə səlahiyyətlərini yerinə yetirmədiyinə görə və digər səbəblərlə bağlı hüquq mühafizə orqanlarından qovulubdur, yaxud işdən çıxarılıbdır. Bunların hər hansı bir vəkillik fəaliyyəti göstərməsi, mən hesab edirəm ki, etik davranış qaydasına uyğun deyil. Ola bilər ki, qanunda belə bir norma müəyyənləşdirilməyibdir, yaxud

bunlar sonradan imtahan verir, imtahan əsasında bu hüququ qazanır. Amma bunun şəxsi işində var ki, bu insan dəfələrlə cinayət törədibdir. Məncə, biz bir norma müəyyənləşdirməliyik. Adi sürücülük vəsiqəsi alan şəxs, heç olmasa, iki il gedir gözləyir, iki ildən sonra təzədən gəlir imtahan verir. Vəkillik fəaliyyətinə məhdudiyyət qoyulan şəxs oradan çıxır, gedir nümayəndə kimi, doğrudur, indi nümayəndəlik ləğv olunub, yaxud yenə də deyir ki, mən vəkiləm. Axı, sənin vəkillik fəaliyyətinə məhkəmə qaydasında və yaxud digər formada xitam verilibdir. Sən necə vəkil ola bilərsən? Kim müəyyənləşdirir ki, sənin vəkilliyin qalır, ya qalmır. Bu baxımdan da, mən hesab edirəm ki, qanunlarımızda biz bu hallara diqqət yetirməliyik.

Yaxud  hüquq müdafiəçiləri ilə bağlı. Keçən dəfə də mən qeyd etdim. Vaxtı ilə başqalarının hüquqlarını pozan insanlar indi hüquq müdafiəçisinə çevrilib. Ona görə bu cür insanlardan hüquq müdafiəçisi olmaz və onların qeydiyyat məsələləri də istər Ədliyyə Nazirliyində, istərsə də digər yerlərdə qeyri-mümkün olmalıdır. İndi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası fəaliyyət göstərir. Bu cür insanlara heç bir dövlət dəstəyindən, maddi yardımdan söhbət gedə bilməz. Çünki ömrü boyu bunlar insanların hüquqlarını pozublar, bu səbəbdən işdən azad ediliblər, indi isə hüquq müdafiəçisi olublar. Avropa Şurasına, ayrı-ayrı strukturlara yalandan məlumatlar, siyahılar yazıb göndərməklə məşğul olurlar. Bu baxımdan da, mən  hesab edirəm ki, bu insanlarla işimizi konkretləşdirməliyik ki, gələcəkdə formalaşan nəsillər, istər vəkillər, istərsə də hüquq müdafiəçiləri qanunun aliliyi ilə hərəkət etsin. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Əli Hüseynli.

**Ə.Hüseynli**. Çox sağ olun, hörmətli Ziyafət müəllim.

Mən Qüdrət müəllim Həsənquliyevin qaldırdığı məsələ ilə bağlı arayış vermək istəyirdim. Həqiqətən də, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı biz cinayət prosessual qanunvericiliyinə bir il əlavələr və dəyişikliklər edirik. Xatırlayırsınızsa, parlamentdə geniş ictimai müzakirə oldu. Orada da Qüdrət müəllim bu məsələni qaldırmışdı və işçi qrupunda da müzakirə etdik. İşçi qrupunda həm digər hüquq mühafizə orqanlarının nümayəndələri, Ali Məhkəmə, Prezident Administrasiyası, yəni bütün hüquq ictimaiyyəti təmsil olunurdu. Məsələ bundadır ki, "ölmüş zərərçəkmiş şəxs" ifadəsi yeni deyil. Bu onsuz da Cinayət-Prosessual Məcəllədə var idi. Qüdrət müəllimin təklifi bunu bir qədər başqa cür ifadə etmək idi. Yenə deyirəm, onu biz müzakirə etdik, amma nəticə əldə olunmadı. İndiki layihədə isə ancaq uyğunlaşdırma xarakteri daşıyır. Yəni bizim cinayət-prosessual qanunvericilikdə var, cəza siyasətinin humanistləşdirilməsi ilə bağlı indi o, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda öz əksini tapır. Amma bu yanaşmanı bir də işçi qrupunun diqqətinə çatdıra bilərəm. Bu qədər. Ziyafət müəllim, çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, təşəkkür edirəm. Bu məsələyə mən də münasibət bildirmək istəyirəm, Əli müəllim. Müəyyən mənada Qüdrət müəllimin dediyində məntiq var. Amma Qüdrət müəllim, burada nə nəzərdə tutulur? Məsələn, ola bilsin ki, zərərçəkmiş şəxs iki ay, üç ay müalicə olunur, iki ay, üç aydan sonra rəhmətə gedir. Mən hesab edirəm ki, burada məhz həmin hal nəzərdə tutulur. Amma əlbəttə, ola bilsin ki, dilçilik baxımından deyək ki, zərərçəkmiş şəxs ölərsə, onun artıq hüquqi varisi və mətn üzrə. Amma məhz bu cür yazılış bizim Cinayət-Prosessual Məcəllədə artıq oturubdur. Mən hesab edirəm ki, bu da normaldır.

Amma zərərçəkmiş şəxs vəfat edərsə, ölərsə, yazılsa, bu artıq daha dəqiq olardı. Buyurun, başqa çıxış etmək istəyən yoxdursa, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.30 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş “Hərbi xidmətkeçmə haqqında Əsasnamə”də dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında məsələdir. İcazənizlə, mən bu barədə məlumat verim.

Hörmətli həmkarlar, yadınızdadırsa, oxşar dəyişikliyi biz “Hərbi vəzifə və hərbi xidmət haqqında” Qanunda etmişik və o qanun layihəsi artıq qəbul olunubdur. Bu qanun layihəsinin birinci oxunuşunda mən bu barədə artıq məlumat verdim. Söhbət nədən gedir? Söhbət 2017-ci il 10 fevral tarixli sərəncamda qoyulmuş məsələlərə uyğunlaşdırmadan gedir. Bilirsiniz ki, möhtərəm Prezidentin çox böyük bir sərəncamı oldu. Penitensiar sistemdə fəaliyyətin daha da təkmilləşdirilməsi və cəza siyasətinin humanistləşdirilməsi və azadlıqdan məhrum etməmə növündə məsuliyyət məsələlərinin müəyyən olunması, onların tətbiqi ilə bağlı çox böyük sərəncam verildi. Həmin sərəncamda vəzifə qoyuldu ki, Azərbaycanda cəza siyasətinin huma-

nistləşdirilməsi ilə bağlı məsələlər daha da genişləndirilsin. Bununla əlaqədar biz Cinayət Məcəlləsini dəyişdirdik və 2017-ci il dekabr ayının 1-də Cinayət-Prosessual Məcəllədə dəyişiklik etdik. Bu da həmin qəbildən olan qanun layihəsidir. Biz bu məsələni həmin qanunlara, yəni Cinayət Məcəlləsinə uyğunlaşdırırıq. Əgər başqa fikriniz yoxdursa, xahiş edirəm, bu məsələyə münasibət bildirəsiniz. Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.32 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 2 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, onda qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.33 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli deputatlar, ikinci oxunuşun tələbinə uyğun

olaraq biz qanun layihəsinə bütövlükdə münasibət bildirməliyik. Hərçənd qanun layihəsi həcm etibarı ilə çox kiçikdir, amma ikinci oxunuşun tələbi belədir. Xahiş edirəm, zəhmət olmasa, bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.34 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 1 |
| İştirak edir | 90 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Dövlət rüsumu haqqında" Qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi Milli Məclisin plenar iclasında birinci oxunuşda müzakirə edilərkən ona hər hansı bir əlavənin edilməsi barədə təklif daxil olmamışdır. Ona görə də qanun layihəsinin lehinə səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Qanun layihəsi ikinci oxunuşda müzakirə olunduğuna görə, gəlin, qanun layihəsinə əsas kimi münasibət bildirək, qəbul edək, ondan sonra müzakirəni davam etdirərik.

| **Səsvermənin nəticələri** | (saat 13.35 dəq.) |
|---|---|
| Lehinə | 86 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 86 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Buyurun, Qudrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, Ziyafət müəllim. Ziyafət müəllim, bu məsələ ilə də bağlı bir dəfə mən Milli Məclisdə çıxış etmişdim. Söhbət ondan gedir ki, indi də qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən orqan tərəfindən göstərilən xidmətlərə görə ödənilən dövlət rüsumunun 50 faizi müvafiq icra hakimiyyəti orqanın müəyyən etdiyi orqanın, belə deyək, xəzinə hesabına köçürülür. Qalan hissəsi isə dövlət büdcəsinə ödənilir. Ümumiyyətlə, bu cür yanaşmanı, hörmətli millət vəkilləri, mən doğru hesab etmirəm və bu barədə də danışmışam. Biz vaxtı ilə Dövlət Yol Polisinin, cərimə təyin edə bilən, rüsum toplayan digər qurumların – Gömrük Komitəsinin, Vergilər Nazirliyinin əməkdaşları ilə bağlı oxşar qanunlar qəbul etmişik. Mən hər zaman söyləmişəm ki, biz bununla cəmiyyətdə sosial ədaləti pozmuş oluruq. İndi hörmətli Hadi müəllim də burada iştirak edir, yəqin o da münasibət bildirər.

Dövlətin bir əmək haqqı siyasəti olmalıdır və bütün dünyada əmək haqqı eyni meyarlar əsasında müəyyənləşir. Yüksək ixtisas, intellekt tələb edən əmək fəaliyyəti, həyat və səhhət üçün böyük risklər yaradan fəaliyyət sahələri üçün, burada söylədiyim kimi, həmişə yüksək əmək haqları təyin olunur. Amma indi, tutaq ki, Gömrük Komitəsinin əməkdaşı, Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşı rüsum toplaya bilirsə, misal üçün, Milli Məclis Aparatının əməkdaşı rüsum toplamırsa, yaxud Dövlət

Yol Polisinin əməkdaşı cərimə təyin edə bilirsə, yanaşma necə olmalıdır? Bəzən onlar öz əmək haqları məbləğində, bəzən hətta ondan da çox miqdarda bu rüsumlara görə əlavə maaş alırlar. Bəs bu nə dərəcədə ədalətlidir? İndi o insanlar, tutaq ki, qanunları pozmasınlar, yaxud çox rüsum toplasınlar, çox cərimə təyin etsinlər deyə, biz onları stimullaşdırırıq ki, get, məsələn, Yol Polisinin əməkdaşı-dır, sürücüyə ən xırda pozuntuya görə dərhal cərimə təyin et, ona görə ki, o cərimədən sənə 25 faiz vəsait gələcək.

Düşünmürəm, dövlət öz əməkdaşlarını, öz məmurlarını stimullaşdırmalıdır ki, onlar bu formada fəaliyyət göstər-sinlər. Onların, əlbəttə, çəkdiyi zəhmətə görə əmək haqqı ödənilməlidir, rüsumlar da, bütün cərimələr də büdcəyə getməlidir və vətəndaşlara da, dediyim kimi, işinin xüsu-siyyətlərinə uyğun olaraq əmək haqqı təyin olunmalıdır. İndi bu yeni sahənin əməkdaşlarına biz yenə də bu hüquq-ları veririk. Amma mən düşünürəm ki, bunu etməklə, sə-mimi deyirəm, biz digər dövlət qulluqçularına münasibət-də ciddi şəkildə ədalətsizliyə yol vermiş oluruq. Diqqəti-nizə görə çox sağ olun.

**Sədrlik edən.** Xanhüseyn Kazımlı.

**X.Kazımlı.** Ziyafət müəllim, mənə söz verdiyinizə görə çox sağ olun. Mən keçən dəfə də demişəm, dəfələrlə de-mişəm. Ümumiyyətlə, bizim qanunlarımızda Qüdrət Həsənquliyevin dediyi kimi, bəzi məsələlər düzgün get-məyibdir. Misal üçün, mən bu “zərərçəkmiş insan” ifadə-sinin əleyhinəyəm, yaxud da “daşınmaz əşya”. Ona görə də mən təklif edirəm ki, ümumiyyətlə, bizim qanunları-mızda o səhv olan məsələlərə düzəliş vermək üçün bir ko-missiya yaradaq. Amma mən dəfələrlə demişəm ki, misal üçün, “daşınmaz əşya” olmaz, “daşınmaz əmlak” olar.

**Sədrlik edən.** Elə daşınmaz əmlakdır, Xanhüseyn

müəllim. Qanunvericilikdə daşınmaz əmlakdır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, mikrofon verin.

**X.Kazımlı.** Yaxşı olar, çox sağ olun. Mən bu qanuna səs verəcəyəm.

**Sədrlik edən.** Çingiz Qənizadə.

**Ç.Qənizadə.** Təşəkkür edirəm. Mən, təbii ki, bu qanun layihəsini dəstəkləyirəm və bunun üçün bir neçə əsaslandırılmış fikirlərimi qeyd etmək istəyirəm. Son dövrdə biz görürük ki, Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyəti müsbət istiqamətdə və çoxşaxəli davam edir. Biz özümüz bunu arzulayırdıq. Deyirdik ki, niyə bazarlara nəzarət yoxdur, niyə ərzağa nəzarət yoxdur, niyə ət mafiyası bu qədər leşi Bakıya daşıyır, heç kim qarşısını ala bilmir? Hansı isə yol, ya bir inzibati protokolla canlarını qurtarırlar. Bizim hamımız narahat idik. Ailələrimiz üçün, özümüz üçün, xalqımız üçün. Cənab Prezident sağ olsun, belə bir qurum yaratdı və ona geniş səlahiyyətlər verdi ki, bu istiqamətdə Azərbaycan xalqının qida təhlükəsizliyini təmin etsin.

Amma təbii, bu gün Azərbaycanda əmək haqqı olduqca azdır və biz istəyiriksə ki, bu qurum əmək haqqının azlığına görə hansı isə neqativ hallara yol versin, onda gəlin, bu qanunu dəstəkləməyək. Amma istəyiriksə ki, onların maddi marağı təmin olunmaqla qarşıya qoyulan məqsədə nail olsunlar və bizim hamımızın, Azərbaycan xalqının qida təhlükəsizliyini təmin etsinlər, biz onlara yaşıl işıq yandırmalıyıq. Bax, indi Əli müəllim söhbət əsnasında mənə dedi, biz ASAN xidmətdə 50 faizlik rüsumu tətbiq etmişik. Özünü bundan sonra doğrultdu. Çünki orada da əvvəllər o rüsum, yəni onların əmək haqqına, sosial şəraitinin yaxşılaşmasına yönələn o faiz bir az aşağı idi. Bu, artıq özünü doğruldur.

Presedent var və bu gün ASAN xidmət haqqında, Azərbaycanın brendi olan bu qurum haqqında heç kim mənfi fikir söyləyə bilməz. Amma mən son vaxtlar nəyi də görürəm, Ziyafət müəllim? Bu qurumun rəhbərliyinə, əməkdaşlarına qarşı iyrənc yolla pul qazanan mafiya üzvləri "mətbuat" vasitəsilə hücumlara keçirlər. Qurumun rəhbərliyinə, onun əməkdaşlarına qarşı qarayaxmalarla məşğuldurlar və bunun arxasında da müəyyən adamlar durur. Gözdən salmağa çalışırlar.

Biz də istəyirik ki, onlara dəstək olaq. Qoyun, inzibati protokolu mağazada yazsın ki, niyə vaxtı keçmiş ərzağı, vaxtı keçmiş hansısa əşyanı satırsan, hansısa əti, yaxud yararsız məhsulları insanlara müxtəlif adlarla, markasını, tarixini dəyişməklə satırsan. Qoyun, yazılsın. Burada nə pis iş var ki?

Qanunu dəstəkləyirəm və hesab edirəm ki, Qida Təhlükəsizliyi Agentliyinə hər birimiz dəstək olmalıyıq. Mən fürsətdən istifadə edib Azərbaycan vətəndaşlarına da müraciət edirəm, gəlin, hamımız birlikdə bu quruma dəstək olaq ki, bazarlara bu cür yad məhsulların çıxarılmasına mane olaq.

**Sədrlik edən.** Buyurun, başqa çıxış eləmək istəyən yoxdur? Onda, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |

Nəticə: Qəbul edildi

Qəbul edildi,  sağ olun.

Qanun layihəsinə bütövlükdə, xahiş edirəm, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Növbəti məsələ. “Baytarlıq haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Eldar müəllim, buyurun.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Elə o da Eldar müəllimdir. Buyursun.

**E.Quliyev,** *Milli Məclisin Aqrar siyasət komitəsi sədrinin müavini.*

Çox sağ olun, Ziyafət müəllim. Ziyafət müəllim, icazə versəniz, 42, 43, 44-cü məsələlər, “Baytarlıq haqqında”, “Fitosanitar nəzarəti haqqında”, “Yeyinti məhsulları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri eyni xarakterli olduğuna görə birlikdə məlumat verim, ayrı-ayrı səsə qoyaq.

**Sədrlik edən.** Bir dəqiqə, üzr istəyirəm. Bunlar hamısı ikinci oxunuşdadır. Ona görə biz bunların səsverməsini ayrı-ayrı keçirməliyik. Siz birinci barədə məlumat verin. Əgər bunlar birinci oxunuşda olsa idi, onda problem yaratmırdı. Bunlar hamısı ikinci oxunuşdadır. İkinci oxunuşun da səsvermə qaydası var. “Baytarlıq haqqında”. Buyurun,

Eldar müəllim.

**E.Quliyev**. Təqdim olunan qanun layihəsinin birinci oxunuşunda biz “Baytarlıq haqqında” Qanunda qanunauyğun tələblərin pozulmasına görə tətbiq edilən cərimələrdən toplanan vəsaitin 50 faizinin bu orqanın hesabına köçürülməsini nəzərdə tutan maddənin əlavə edilməsini təklif etmişdik. Layihənin birinci oxunuşda müzakirəsində həmin maddənin mətnində bu orqanı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan kimi göstərmişdik. Lakin layihə ikinci oxunuşa hazırlanarkən onu qanunvericilik təşəbbüsü qaydasında təqdim edən orqan təklif etdi ki, həmin maddəyə “İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi” sözlərindən sonra “qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən” sözləri əlavə edilsin. Bu düzəliş dəqiqləşdirmə xarakteri daşıyır. Layihə Aqrar siyasət komitəsində birinci oxunuşda müzakirə edilmiş və sizə təqdim olunan variantda öz əksini tapmışdır. Layihənin ikinci oxunuşda qəbul edilməsini təklif edirəm.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl əsas kimi qəbul edək. Buyurun, münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı? Xeyr, yoxdur. Onda, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.48 dəq.) |
|---|---|
| Lehinə | 89 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.49 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“Fitosanitar nəzarəti haqqında” Azərbaycan Respublikası Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Eldar müəllim, buyurun.

**E.Quliyev**. Çox sağ olun, Ziyafət müəllim. Hörmətli millət vəkilləri, bu qanun da eyni xarakterlidir. Qanun layihəsi müvafiq icra hakimiyyəti orqanı işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə “Fitosanitar nəzarəti haqqında” Qanuna Dövlət Fitosanitar Nəzarəti Xidmətinin qanunauyğun tələblərinin pozulmasına görə tətbiq edilən

cərimələrdən toplanan vəsaitin 50 faizinin bu orqanın hesabına köçürülməsini nəzərdə tutan maddənin əlavə edilməsi təklif olunur. Lakin layihə ikinci oxunuşa hazırlanarkən qanunvericilik təşəbbüsü göstərən subyektinin təklif etdiyi həmin maddəyə "İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi" sözlərindən sonra "qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən" sözləri əlavə olunub. Millət vəkillərindən edilən bu dəyişikliklərə səs verməlerini xahiş edərdim.

**Sədrlik edən.** Çox sağ olun. Qanun layihəsinin müzakirəsinə keçməzdən əvvəl əsas kimi qəbul edək.

| **Səsvermənin nəticələri** | (saat 13.51 dəq.) |
|---|---:|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Qanun layihəsi ilə bağlı çıxış etmək istəyən varmı? Musa Quliyev, buyurun.

**M.Quliyev**. Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Bu layihəyə mən səs verəcəyəm, eyni zamanda, bayaq hörmətli millət vəkili Çingiz Qənizadənin də dedikləri ilə şərikəm. Qida Təhlükəsizliyi Agentliyinin yaradılması, fəaliyyəti məqsədəuyğundur və bütövlükdə milli təhlükəsizliyimizə xidmət edən uğurlu addımlardır. Amma bayaq Qüdrət Həsənquliyev burada çox dəyərli bir fikir söylədi, bu fikri vaxtı ilə hörmətli Siyavuş Novruzov da gündəmə gətirmişdi. Qüdrət müəllimin, Siyavuş müəllimin fikirlərini qəribçiliyə salmayaq.

Biz bütövlükdə vahid tarif cədvəli haqqında bir qanun qəbul eləməliyik və dövlət büdcəsindən maliyyələşən hər kəsə pulu dövlət verməlidir. Yoxsa, bu getdi harada cərimə kəsdi, harada nə rüsum topladı, onun da yarısını o quruma veririk, o qurum da hansı şəkildə bunu paylayır, buna da biz nəzarət edə bilmirik. Bu mənada, vətəndaş da, dövlət qulluqçusu da, dövlət qulluqçusu olmayan, başqa sahədə çalışan vətəndaş da maaşını dövlətdən almalıdır. Bütövlükdə bir neçə strukturla bağlı bunu biz qəbul eləmişik. Deyirik onları stumullaşdırmaq üçün. Bu adamın vəzifə borcudur ki, getsin, rüsum toplasın. Vəzifə borcudur ki, haradasa qanun pozuntusu görürsə, onu cərimə eləsin. Bunu stimullaşdırmağın bir yolu varsa, bu, dövlətin büdcəsindən gələn maliyyə vəsaiti olmalıdır.

Buna görə mən təklif edirəm ki, bunlara səs verək, öz yerində, amma Milli Məclis bu məsələni öz gündəliyində saxlasın, aidiyyəti üzrə komitəyə tapşırsın. Mən düşünürəm, Ziyad müəllimin komitəsi bu işlə məşğul olsa, yaxşı olar. Vahid tarif cədvəli və əmək haqqının ödənilməsi ilə bağlı biz qanun qəbul edərik. Axırıncı dərəcədən tutmuş birinci dərəcəyə qədər hər kəsin tarif dərəcəsinə uyğun maaşları müəyyənləşdirilsin. İlin əvvəlində dövlət başçısının sərəncamı ilə, tutaq ki, kimlərin əmək haqqı 10 faiz, 15 faiz artırılırsa, hamı da o nisbətdə öz əmək haqqını alsın. Mən hesab edirəm ki, gələcəkdə bu məsələyə qayıtsaq, yaxşı olar. Amma layihəyə bir iradım yoxdur, səs verəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Musa müəllim. Başqa çıxış eləmək istəyən?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.54 dəq.) |
| --- | --- |
| Lehinə | 95 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə qanun layihəsinə münasibət bildirməyinizi xahiş edirəm.

| **Səsvermənin nəticələri** | (saat 13.55 dəq.) |
| --- | --- |
| Lehinə | 94 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 94 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi,  sağ olun.

"Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, ikinci oxunuş. Buyurun, Eldar müəllim.

**E.Quliyev.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli millət vəkilləri, bu qanun layihəsi də eyni xarakterlidir. Təqdim olunan qanun layihəsi də müvafiq icra hakimiyyəti orqanının işçilərinin sosial müdafiəsini gücəndirmək məqsədilə "Yeyinti məhsulları haqqında" Qanuna onların qanunauyğun tələblərinin pozulmasına görə tətbiq olunan cərimələrdən toplanan vəsaitin 50 faizinin bu orqanın hesabına köçürülməsini nəzərdə tutan maddənin əlavə edilməsi təklif edilmişdi. Lakin layihə ikinci oxunuşa

hazırlanarkən qanunvericilik təşəbbüsü göstərən orqan təklif etdi ki, həmin maddəyə "İnzibati Xətalar Məcəlləsinə əsasən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi" sözlərindən sonra "qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən" sözləri əlavə edilsin. Millət vəkillərindən bu dəyişikliyə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Qanun layihəsini əsas kimi qəbul edək, səs verək, ondan sonra müzakirəni davam etdirərik.

| **Səsvermənin nəticələri** | (saat 13.56 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

İndi isə qanun layihəsinin müzakirəsinə keçirik. Buyurun, Aytən Mustafazadə.

**A.Mustafazadə**. Söz verdiyiniz üçün təşəkkür edirəm. Ümumiyyətlə, bu qanunların hamısı çox vacibdir və mən onu da qeyd etmək istəyirəm ki, Qida Təhlükəsizliyi Agentliyi ölkə Prezidentinin sərəncamı ilə yaradılıb. Amma indiyə qədər bu Agentliyin işləməsinin, fəaliyyət göstərməsinin hüquqi əsasları yaradılmayıb. Biz bu istiqamətdə işimizi onlarla birgə qurmalıyıq ki, bu Agentliyin üzərinə düşən vəzifələrini yerinə yetirmək üçün hüquqları imkanları daha çox olsun.

"Yeyinti məhsulları haqqında" Qanuna gəldikdə, mənim bir neçə təklifim var. Qanunun 9-cu və 10-cu maddələrində "qida əlavələri" terminindən istifadə edilsə də,

“Əsas anlayışlar” adlanan birinci maddədə onun hüquqi anlayışı verilməmişdir. Hər bir qanuna qarşı irəli sürülən əsas tələblərdən biri onun anlaşıqlı və hamı tərəfindən başa düşülən olmasıdır. Bu baxımdan, qanunda işlədilən, lakin ümumi olmayan, xüsusi elm sahələrinə aid olan terminlərin mənalarının izah edilməsi məqbul hesab edilir. Ona görə də qanunun birinci maddəsinə qida və əlavələrin aşağıdakı məzmunda hüquqi anlayışının əlavə edilməsi məqsədəmüvafiq olardı: “Qida əlavələri yeyinti məhsuluna müəyyən xüsusiyyətlər vermək və ya onun keyfiyyətini qorumaq üçün həmin məhsulun istehsalı prosesində ona xüsusi olaraq daxil edilən təbii və ya süni maddələr və onların birləşmələridir”.

İkinci, qanunun 4-cü maddəsinin sonuna aşağıdakı məzmunda hissənin artırılması məqsədəmüvafiq olardı: “Yeyinti məhsullarının minimum keyfiyyətinə və təhlükəsizliyinə dair qüvvədə olan qanunvericiliyin tələblərinin pozulmasına görə təqsirli şəxslərə hüquqi məsuliyyət tədbirlərinin tətbiqi”.

Qanunun 9-cü maddəsinə aşağıdakı məzmunda müddəanın əlavə edilməsi məqsədəmüvafiq olardı: “Yeyinti məhsullarının istehsalında istifadə edilən qida məhsulları insan həyatına və sağlamlığına zərər vurmamalıdır”.

Qanunun 9-cu maddəsini son abzasına aşağıdakı məzmunda ikinci cümlənin artırılması məqsədəmüvafiq olardı: “Bu qayda Azərbaycan Respublikası ərazisinə ilk dəfə olaraq gətirilən qida məhsullarına da şamil olunur”.

Qanunun 11-ci maddəsinin ilk cümləsinin aşağıdakı redaksiyada verilməsi daha məqsədəmüvafiq olardı: “Yeyinti məhsullarının qablaşdırılması və etiketləşdirilməsi, onların minimum keyfiyyətinin və qidalılıq dəyərinin yararlılıq müddətində təhlükəsiz saxlanması, daşınması və

istifadəsi təmin edilməlidir”.

Təbii, biz də bilirik ki, hazır məhsulları bazalardan dükanlara gətirərkən, soyuducuda gətirmirlərsə, onların keyfiyyəti tamamilə itir və yolda keyfiyyətini dəyişə bilər. Qanunun 12-ci maddəsində...

**Sədrlik edən.** Aytən xanım, üzr istəyirəm, biz qanunun yalnız bir maddəsini müzakirə edirik, 8-ci maddəsini. Onun da mahiyyəti tamam başqadır. Bəlkə Siz təkliflərinizi verəsiniz komitəyə, onlar baxarlar, nəzərə alarlar. Çox xahiş edirəm. Başqa çıxış eləmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bütövlükdə, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 14.02 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Saat 4-ə qədər fasilə.

***(FASİLƏDƏN SONRA)***

**Sədrlik edən.** "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə. Ziyad müəllim, buyurun.

**Z.Səmədzadə.** "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə hazırlanmışdır. Daşıyıcılar üçün Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin həm sərnişinləri, həm də ekipaj üzvləri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat vermək öhdəliyi müəyyən edir. Hava gəmisinin sərnişinləri və ekipajı barədə verilməli olan məlumatların siyahısı, məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları ilə mübadilə edilməsi qanun qüvvəyə mindikdən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək qaydalarda öz əksini tapacaqdır. Bu kimi dəyişikliklər dünyanın əksər ölkələrində müvafiq qanun layihələrində öz əksini tapmışdır. Millət vəkillərindən bu qanun layihəsinə səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Sağ olun. Çıxış etmək istəyən yoxdur?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Qanun layihəsi birinci oxunuşda müzakirə olunur. Əgər etiraz yoxdursa, buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.07 dəq.) |
|---|---|
| Lehinə | 77 |
| Əleyhinə | 0 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 77 |
| Nəticə: Yetərsay yoxdur | |

Yetərsay yoxdur. Xahiş edirəm, səsvermədə diqqətli olun. Xahiş edirəm, bir daha səs verək.

Səsvermənin nəticələrini verin. Bir az texniki nasazlıq oldu. Xahiş edirəm, bir də səs verək.

| **Səsvermənin nəticələri** | (saat 16.09 dəq.) |
|---|---|
| Lehinə | 91 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 91 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Buyurun, Ziyad müəllim.

**Z.Səmədzadə.** Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! "Dövlət borcu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi "Kredit büroları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə əlaqədar hazırlanmışdır. Adıçəkilən qanuna əsasən kredit təşkilatlarının borcalanları barədə Maliyyə Bazarlarına Nəzarət Palatasının mərkəzləşdirilmiş kredit reyestrində olan bütün məlumatlar bu qanun qüvvəyə mindiyi gündən 3 il ərzində fəaliyyətə başlayan kredit bürosuna onun müraciəti əsasında birdəfəlik və ödənişsiz verilir. Bununla da məlumat istifadəçilərinə

məlumatın yalnız kredit büroları vasitəsi ilə verilməsi təsbit edilmiş və 2018-ci il aprelin 1-dən mərkəzləşdirilmiş kredit reyestrindən məlumat istifadəçilərinə məlumatın verilməsi dayandırılmışdır. Odur ki, dövlət zəmanəti ilə borc almaq üçün müraciət edən borcalandan mərkəzləşdirilmiş kredit reyestrindən çıxarış əvəzinə, kredit bürosundan kredit hesabatı adlı sənəd tələb olunacaqdır. Millət vəkillərindən bu qanun layihəsinə də səs vermələrini xahiş edərdim.

**Sədrlik edən.** Nə təklif olacaq? Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.11 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi, birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, Ziyafət müəllim. Təklif olunur ki, Cinayət-Prosessual Məcəlləsinin 197-ci maddəsinə, yəni məhkəmə məsrəfləri maddəsinə Azərbaycan Respublikasının ərazisindən kənarda istintaqdan gizlənən, təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana gətirilməsi ilə əlaqədar çəkilmiş xərclərin məbləği ilə bağlı bir əlavə edilsin. Məsələnin mahiyyəti bundan ibarətdir ki, hazırda bu məsrəflər dövlət tərəfindən

ödənilir. Təklif ondan ibarətdir ki, bu məsrəf həmin o təqsirləndirilən şəxsin özündən tutulsun. Səs verməyinizi xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Çox sağ olun, Ziyafət müəllim. Amma düşünürəm ki, biz bu məsələni çox götür-qoy etməliyik. Ona görə ki, cinayətkarlığa qarşı mübarizə ilə əlaqədar olaraq xərclər büdcədən ayrılır və dövlət tərəfindən ödənilir. Yəni eyni məntiqlə biz yanaşsaq, onda, hörmətli Əli müəllim, gərək penitensiar sistemin əməkdaşlarının, polisin, prokurorluq orqanlarının saxlanma xərclərini də biz məhkumların, yaxud belə deyək, cinayətlə bağlı təqib olunan şəxslərin üzərinə qoyaq. Ona görə ki, onlar cinayət törətməsələr, heç prokurorluğa da, polisə də, penitensiar sistemə də ehtiyac olmaz. Yəni onların orada saxlanma xərcləri var, hər bir məhbusa görə dövlət pul ayırır. Orada onun yemək, yatmaq və sair xərcləri var. Bunların hamısını dövlət ödəyir. Ona görə də bu xərclərin məhkumun üzərinə qoyulması, hesab edirəm ki, ümumiyyətlə, doğru yanaşma deyil. Mənim deyəcəyim budur. Ona görə də düşünürəm ki, biz bu məsələni ciddi şəkildə götür-qoy etməliyik, düşünməliyik. Eyni məntiqlə yanaşsaq, dediyim kimi, onda gərək bütün xərclərin hamısını biz qoyaq məhkumların üzərinə. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Başqa çıxış etmək istəyən varmı?

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirin.

| **Səsvermənin nəticələri** | (saat 16.14 dəq.) |
|---|---|
| Lehinə | 85 |
| Əleyhinə | 3 |

| | |
|---|---|
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 89 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsi, birinci oxunuş. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun. Hörmətli həmkarlar, bildiyiniz kimi, hazırda feldyeger rabitəsi xidməti Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tərkibində fəaliyyət göstərir. İnzibati Xətalar Məcəlləsinə təklif olunan əlavədə feldyeger rabitəsi haqqında qanunvericiliyin pozulmasına görə məsuliyyət nəzərdə tutulur. Bunlar cərimə məsuliyyətidir. Hesab edirəm ki, feldyeger rabitəsinin əhəmiyyətini nəzərə alaraq, bu cür xətalara həm də adekvat cərimə sanksiyaları, çox da böyük olmayan cərimə sanksiyaları tətbiq olunur. Həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Buyurun, xahiş edirəm, birinci oxunuşda qanun layihəsinə münasibətimizi bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.16 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

“İnzibati icraat haqqında” Azərbaycan Respublikasının

Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Buyurun, Əli müəllim.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. “İnzibati icraat haqqında” Qanuna edilən bu əlavələr kifayət qədər əhəmiyyətlidir. Ərizəçi ilə, vətəndaş ilə dövlət orqanı arasında olan münasibətləri həm şəffaf edir, həm də vətəndaşın xeyrinə müəyyən bir çərçivəyə salır. Mahiyyət ondan ibarətdir ki, edilən əlavəyə görə hər hansı bir inzibati orqanın nümayəndəsi ərizəçidən digər inzibati orqanın sərəncamında olan sənədlərin və məlumatların məhz ərizəçi tərəfindən əldə olunmasını tələb edə bilməz. Çünki elə həmin dövlət orqanının özü bunu həyata keçirə bilər və bu vəzifə ərizəçinin üzərinə qoyulmamalıdır. Bu baxımdan, çox kiçik, amma əhəmiyyətli bir dəyişiklikdir. Həmkarlarımdan səs vermələrini xahiş edirəm.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.17 dəq.) |
|---|---|
| Lehinə | 84 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 85 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Əli müəllim, buyurun.

Üzr istəyirəm, İnzibati Xətalar Məcəlləsini səsə qoy-

madıq, deyəsən? Buyurun, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 16.18 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 88 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli deputatlar, 3 qanun layihəsi deputatların statusu ilə bağlıdır, yəni Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" və "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihələridir. Əgər etiraz etməsəniz, hər üç qanun layihəsini bir yerdə müzakirə edək. Çünki hər üç qanun layihəsi birinci oxunuşda müzakirənizə çıxarılır. Səsverməni ayrıca aparaq. Buyurun, Əli müəllim, məlumat verin, zəhmət olmasa.

**Ə.Hüseynli.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Təşəkkür edirəm ki, məhz belə təklif etdiniz. Çünki bu layihələrin hər üçü bizim komitə tərəfindən və Milli Məclis Aparatı əməkdaşlarının yaxından dəstəyi, köməyi ilə hazırlanıb və Milli Məclisə təqdim olunub.

Hörmətli həmkarlar, ilk növbədə Milli Məclisin Daxili Nizamnaməsi ilə bağlı. Bilirsiniz ki, biz Konstitusiyamıza əlavələr və dəyişikliklər etdik, 89-cu maddənin yeni 6-cı

və 7-ci bəndlərindən sonra deputatın etik davranış qaydaları da işlənib hazırlandı və qəbul olundu. Bundan sonra “Normativ hüquqi aktlar haqqında” Qanuna da bir sıra əlavələr və dəyişikliklər edildi. İndiki dövrə qədər biz həmçinin etik davranış qaydalarının pozulması ilə bağlı Mərkəzi Seçki Komissiyasının qərarından Apellyasiya Məhkəməsinə və Ali Məhkəməyə şikayət vermə mexanizmini də prosessual qanunvericilikdə həll etmişik. Bu, sizin təklifiniz idi və nəzərə alındı. Hazırda belə bir mexanizm mövcuddur. Amma qanunvericilikdə, bizim Nizamnamədə bu məsələlər, yəni Konstitusiyanın bu müddəasının tətbiqi, İntizam komissiyasının fəaliyyəti, onun səlahiyyətləri ilə bağlı normalar mövcud deyildi.

Xatırlayırsınızsa, müzakirələr zamanı, yəni etik davranış qaydalarını biz burada müzakirə edərkən işçi qrupu, o cümlədən mən söyləmişdim ki, biz Nizamnaməyə mütləq əlavələr, dəyişikliklər təqdim edəcəyik. İntizam komissiyası, onun səlahiyyətləri, bu məsələnin araşdırılması, onun formalaşdırılması ilə bağlı yeni müddəalar təqdim olunacaq. Hazırda sizə təqdim olunan layihə ilk növbədə bu məsələni həll edir. Demək istəyirəm ki, Nizamnamənin 3-cü, 4-cü, 7-ci, 15-ci, 16-cı, 17-ci, 18-ci, 19-cu, 20-ci, 22-ci maddələrinə təklif etdiyimiz əlavə və dəyişikliklər Nizamnamənin “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa uyğunlaşdırılması ilə bağlıdır. Bir sıra hallarda isə “İctimai iştirakçılıq haqqında” və “Hesablama Palatası haqqında” qanunlara uyğunlaşdırmaqla bağlıdır. Yəni 23-cü maddəyə qədər olan əlavələr və dəyişikliklər ancaq uyğunlaşdırma xarakteri daşıyır. Xahiş edərdim ki, o maddələrlə bağlı hansısa yeni təkliflər səsləndirilməsin, çünki o məsələlər artıq bizim qanunvericilikdə var.

O ki qaldı növbəti məsələlərə, bunlar, əlbəttə, yeni

normalardır. Xüsusən də, Milli Məclisin İntizam komissiyası ilə bağlı, Milli Məclisin deputatının səlahiyyətlərini itirməsi ilə əlaqədar məsələyə Milli Məclisdə baxılma qaydası, o cümlədən Milli Məclisin buraxılması məsələsi, bu, Konstitusiyanın 98-ci maddəsinin birinci hissəsinin tətbiqinin təmin edilməsi məqsədi ilə təklif olunur. Həmçinin əgər tanış olmusunuzsa, görürsüz, 41-ci maddə İntizam komissiyası ilə bağlı bir çox məsələləri həll edir. İntizam komissiyasını həm daha səlahiyyətli edir, həm də daha ixtisaslaşmış formada təşkilinə imkan yaradır. İntizam komissiyasının tərkibi, sayının artırılması ilə bağlı da bizim təkliflərimiz var. Amma hansısa başqa təkliflər səsləndirərsinizsə, onu da müzakirə edərik. Eyni zamanda, onu da diqqətinizə çatdırmaq istəyirəm ki, etik davranış qaydalarının pozulması ilə bağlı bu məsələ müzakirə olunarkən komitədə bir sıra həmkarlarımızın fərqli yanaşması olub.

Bizim yanaşma ondan ibarətdir ki, etik davranış qaydasının kobud şəkildə pozulması ilə bağlı mandatdan məhrum edilmə məsələsini Milli Məclisin İntizam komissiyası özü həll edir. Çünki biz Milli Məclisin İntizam komissiyasını seçirik, bizim yaratdığımız orqandır və biz qanunla ona səlahiyyət veririk. O da məhz bu sahədə ixtisaslaşmış bir orqan kimi qərar qəbul edir, rəy hazırlayır və bundan sonra məsələ Mərkəzi Seçki Komissiyasına göndərilir. Mərkəzi Seçki Komissiyasının qərarından isə, –artıq o mexanizm yaradılıb, – millət vəkili Apellyasiya Məhkəməsinə və Ali Məhkəməyə şikayət edə bilər. Demək istəyirəm ki, bu bizim yaratdığımız hansı isə xüsusi mexanizm deyil. Onsuz da bu gün qanunvericiliyə görə, Konstitusiyanın bir sıra, o cümlədən 89-cu maddəsinin bəndlərinə görə deputat mandatından məhrum etmə, de-

putat səlahiyyətlərinin itirilməsi ilə bağlı müvafiq qərar qəbul edən orqanlar var. Elə bir çox məsələlərdə əsas orqan Mərkəzi Seçki Komissiyasıdır. Misal üçün, millət vəkili öz fəaliyyəti ilə bir araya sığmayan bir fəaliyyətlə məşğul olsa, Mərkəzi Seçki Komissiyası qərar qəbul edəcək. Amma, əlbəttə ki, biz indi Milli Məclisin İntizam komissiyasına müəyyən səlahiyyətlər verməklə bu məsələlərdə, yəni etik davranış qaydasının pozulması ilə bağlı əsaslandırılmış, ciddi araşdırma aparılması, ekspert rəyləri alınması, ekspertlər cəlb edilməsi üçün bütün mexanizmləri də yaratmışıq. Yəni İntizam komissiyası çox ciddi bir orqana çevrilməlidir, onun səlahiyyətləri olmalıdır. Təbii ki, ədalətli, obyektiv qərarlar qəbul etməlidir.

Eyni zamanda, vurğuladım ki, bu hal ilə bağlı qərarı məhkəmə orqanlarında mübahisələndirmək imkanı da artıq yaradılıb. Mən bunu ona görə səsləndirdim ki, bu məsələ ilə bağlı bizim bir qədər fikir mübadiləmiz olmuşdu, yəni belə bir fikir də səslənmişdi ki, İntizam komissiyasının rəyi yenidən Milli Məclisin plenar iclasına çıxarılsın. Açığı, bu məsələdə biz həmrəy deyilik və onun heç bir əsasını görmürük. Çünki bir daha vurğulamaq istəyirəm ki, o məsələ bizim yaratdığımız, səsvermə ilə qəbul etdiyimiz, istənilən formada etimad göstərdiyimiz sırf ixtisaslaşmış orqan tərəfindən qəbul olunur.

Hörmətli həmkarlar, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanuna təqdim etdiyimiz dəyişiklik isə sırf uyğunlaşdırma xarakterlidir. "Normativ hüquqi aktlar haqqında" və "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" qanunların tətbiqi ilə əlaqədardır. Burada, ümumiyyətlə, yeni bir norma yoxdur.

Nəhayət, vacib məsələlərdən biri "Azərbaycan Res-

publikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanuna təklif etdiyimiz dəyişikliklər, 53-cü məsələdir. Bilirsiniz ki, biz etik davranış qaydalarını müzakirə edəndə parlamentdə çoxlu fikirlər səslənmişdi və biz hətta o mərhələdə belə etik davranış qaydaları ilə bağlı bır sıra məsələlərdə kompromisə getdik. Yəni mən bunu işçi qrupunun adından deyirəm. Çünki indi sizə təqdim etdiyimiz layihədəki bir sıra normaların dəyişməsi məsələsinin nə zamansa meydana çıxacağını biz bilirik. Amma kompromisə getdik ki, ilk növbədə biz bu qaydaları qəbul edək. Çünki bu, Konstitusiyanın tələbi idi. Amma məlumat üçün deməliyəm və Avropa Şurasında təmsil olunan həmkarlarımız bunu yaxşı bilir, – biz həm də Avropa Şurasının Korrupsiyaya qarşı Dövlətlər Qrupunun üzvüyük və bu təşkilatla əməkdaşlıq edirik, – həmin təşkilatdan bu qanunla bağlı, onun beynəlxalq standartlara uyğunlaşdırılması ilə bağlı tövsiyə və təkliflər daxil olub. Məsələ Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə komissiyasında da müzakirə olunub. Biz Milli Məclisin komitə iclasını və işçi qrupunun iclasını həmin komissiyanın katibinin iştirakı ilə keçirmişik və ətraflı müzakirə aparmışıq. Ona görə qeyd etmək istəyirəm ki, bizim təklif etdiyimiz əlavələr ilk növbədə GREQO-nun tövsiyələrinin və beynəlxalq standartların nəzərə alınması məqsədi ilə də həyata keçirilir. Məlumat üçün deyim ki, qanun layihəsinin 10.3-cü maddəsi, yəni hədiyyələrlə bağlı olan müddəa yeni deyil, "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda bu mövcuddur. Amma etik davranış qaydasında da öz əksini tapmalıdır.

Vacib məsələlərdən biri maraqlar toqquşması ilə bağlı məsələdir. Məlumat üçün deyim ki, bir sıra ölkələrdə xüsusi olaraq maraqlar toqquşması ilə bağlı qanunlar

mövcuddur. Bizdə belə bir qanun yoxdur. Zamanında biz bunu müzakirə etmişik ki, belə bir qanun təklif olunsun yoxsa, yox. Amma qanun olmasa da, indi bizim təqdim etdiyimiz layihədə, yəni qeyd hissəsində biz maraqlar toqquşmasının anlayışını vermişik. Maraqlar toqquşması ilə bağlı təklif edilən mexanizmlər ilk növbədə preventiv xarakter daşıyır və qeyd etdiyim kimi, maraqlar toqquşmasının anlayışı verilir. Anlayışda maraqların subyektlərinin əhatə dairəsi genişdir, amma bu, o halda maraqlar toqquşmasına səbəb olur ki, – bu çox vacib bir məsələdir, – həmin maraqların deputatın vəzifələrinin obyektiv icrasına təsiri olsun. Yəni biz həmişə maraqlar toqquşmasını, ümumiyyətlə, vəzifə səlahiyyətlərinin icrası ilə birlikdə təfsir etməliyik. Belə düşünməliyik ki, hər bir halda maraqlar toqquşması yarana bilməz.

Layihənin 11.1-ci maddəsində maraqlar toqquşması ilə bağlı ümumi prinsiplərdir. Yəqin tanış olub görmüsünüz. Bunlar bütün Avropa ölkələrinin deputatlarının...

11.3-cü maddə. Bu da maraqlı bir müzakirə predmetidir. Amma qeyd etmək istəyirəm ki, bu, spontan hallar üçün nəzərdə tutulub. Yəni lazım bildikdə, ehtiyac olduqda Milli Məclisin üzvü İntizam komissiyasının rəyini əvvəlcədən öyrənməlidir. Ümumiyyətlə, qeyd etmək istəyirəm ki, İntizam komissiyasının bu məsələlərlə, yəni etik davranış qaydalarının tətbiqi ilə bağlı rolu kifayət qədər artıb. İstənilən halda, hər hansı bir sual meydana çıxdıqda, hansı isə bir davranışda çətinlik, ziddiyyətli məqam yarandıqda, əlbəttə, İntizam komissiyasının rəyi vacibdir. Deputat Milli Məclisin iclası və ya ictimai müzakirə zamanı yarana biləcək marağı barədə iclas sədrinə çıxışından əvvəl informatik xarakterli şifahi məlumat verir və bununla yanaşı, deputat yenə də istənilən məsələ ilə

bağlı mövqeyini bildirə bilər. Yəni demək istəyirəm ki, buradakı normalar daha çox preventiv xarakter daşıyır, hər hansı bir məsuliyyət yaratmır. Belə bir mexanizmi yaratmaqla biz həm də üzvü olduğumuz beynəlxalq təşkilatlara göstəririk ki, bu məsələ Milli Məclisin daim diqqətindədir və Milli Məclis deputatlarının etik davranış qaydalarına olan münasibəti həm də bütövlükdə bizim qanunvericilik hakimiyyətinin təmsilçiləri kimi şəffaf fəaliyyətimizin bir göstəricisidir.

Mən, əlbəttə, ilk növbədə işçi qrupuna, həmkarlarıma təşəkkür edirəm ki, bu 3 qanun layihəsinin işlənib hazırlanmasına kömək göstəriblər. Qeyd etmək istəyirəm ki, bu, birinci oxunuşdur. Əlbəttə ki, o prinsipial dediyim məqamlarla bağlı yox, yəni onlar sırf uyğunlaşdırma xarakterlidir, amma digər məsələlərlə bağlı biz sizin fikirlərinizi, təkliflərinizi dinləməkdən məmnunuq və növbəti oxunuşlarda onları nəzərə ala bilərik. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun, Əli müəllim, təşəkkür edirəm. Hörmətli deputatlar, bir daha nəzərinizə çatdırmaq istəyirəm ki, bu 3 qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarılır. Ona görə xahiş edirəm, bunu nəzərə alasınız. Çox konkretliyə varmayaq. Çünki hələ bizim qarşıda ikinci, üçüncü oxunuşlarımız var. Əli müəllim dediyi kimi, bir şeyi də nəzərə alın ki, burada normaların tam əksəriyyəti artıq bu və ya digər qanun layihələrində, xüsusilə Azərbaycan Konstitusiyasında, daha dəqiq desək, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda nəzərdə tutulub və bu qanunların, normaların tam əksəriyyəti o qanuna, yaxud Konstitusiyaya uyğunlaşdırma xarakteri daşıyır. Ona görə xahiş edirəm, bu məsələləri nəzərə alasınız və vaxtdan səmərəli istifadə edək. İndi isə müzakirələrə keçirik.

Qüdrət Həsənquliyev, buyurun.

**Q.Həsənquliyev.** Sağ olun, Ziyafət müəllim. Mən, sözsüz ki, birinci, daha kiçik həcmli olduğuna görə “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Qanundan başlamaq istəyirəm. 9-cu maddənin ikinci hissəsinin 2-ci və 4-cü bəndlərindən “və əlavələr” sözləri çıxarılır. Bu o deməkdir ki, deməli, biz, millət vəkilləri əvvəl həm qanun layihələri, həm qanunlara dəyişikliklər, həm də əlavələr təqdim edə bilərdik, indi əlavələr çıxarılır. Verilən izahata görə, qanunlara əlavələr edilməsi elə qanunların dəyişdirilməsi deməkdir, ona görə də, “əlavələr” sözü buradan çıxarılır.

Mən komitənin iclasında da çalışdım, bunun izahını verim ki, bizim Konstitusiyanın, əsas qanunun özündə iki fəsil var. Bir fəsil dəyişikliklər, digər fəsil Konstitusiyaya əlavələrin edilməsi adlanır. Yəni bu, artıq bir konstitusion norma kimi, konstitusion termin kimi bizim hüquqi leksikonumuzda, terminologiyada var. Dəyişiklik, Konstitusiyada da yazılıb ki, normanın mətnində dəyişikliyin edilməsidir və Konstitusiyada bu, referendum yolu ilə baş verir. Əlavələr isə, dediyim kimi, yeni normaların qanuna daxil edilməsi ilə bağlıdır. Tutaq ki, mən “Pasportlar haqqında” Qanuna əlavə təklif etdim ki, Mərkəzi Seçki Komissiyasının üzvlərinə də diplomatik pasportlar versinlər. Bu əlavədir, orada biz hansı isə formanı dəyişmirik. Amma əlavələrin buradan çıxarılmasını mən başa düşmədim. Bunu komitənin iclasında işçi qrupunun üzvləri, ekspertlər izah etməyə çalışdılar ki, bəs “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununda əlavələr nəzərdə tutulmayıb. Əvvəla, Konstitusiya qanunları, dediyim kimi, Konstitusiya ilə ziddiyyət təşkil etməlidir. Bu, birbaşa Konstitusiyanın tələbidir və həm də

Konstitusiya ölkə ərazisində ən yüksək hüquqi qüvvəyə malik olan sənəddir.

İkincisi, "Normativ hüquqi aktlar haqqında" Qanunun 39-cu maddəsini, istəyirsinizsə, sizin üçün oxuyum. Orada yazılır: "Normayaratma təşəbbüsünün subyektləri onlara verilmiş səlahiyyətlərə uyğun olaraq normativ hüquqi aktın layihəsinin və ya onun hər hansı struktur elementinin qəbul olunması, aktda dəyişikliklər edilməsi, aktın şərh edilməsi, qüvvəsinin dayandırılması və ya ləğv edilməsi zərurəti haqqında təklifi bu Konstitusiya Qanununun 48-ci maddəsinə uyğun olaraq normayaratma orqanına təqdim etmək hüququ olan subyektlərdir".

Deməli, burada normativ hüquqi aktın layihəsi elə bu qanun layihəsi deməkdir, bunun hər hansı struktur elementinin qəbul olunması da elə bu əlavələr deməkdir. Ona görə ki, onun ardınca artıq aktda dəyişikliklərin edilməsi gəlir. Ona görə də mən deputatın statusunun, səlahiyyətinin əlindən alınmasını – o, qanuna əlavələr təklif edə bilməz, – sözün doğrusu, bunu heç cür başa düşə bilmirəm. Komitədə bu məsələni qaldırsam da, çox təəssüf ki, heç kim bunun normal izahını vermədi.

İndi keçək Daxili Nizamnamə ilə bağlı məsələyə. Daxili Nizamnamənin elə 1-ci maddəsi, Ziyafət müəllim, onunla başlayır ki, Milli Məclisin fəaliyyətinin əsas prinsiplərini həm də siyasi plüralizm və çoxpartiyalılıq təşkil edir. Amma Nizamnamənin bütün digər normalarında heç bir yerdə çoxpartiyalılığın fəaliyyətin əsasını təşkil etməsi hər hansı formada öz əksini tapmır. İstər Milli Məclisin komitələrinin, istərsə də Milli Məclisin rəhbərliyinin formalaşdırılmasında və sair. Ona görə də hesab edirəm ki, bu barədə biz ciddi düşünməliyik. Yəni bu Nizamnaməni, əslində, biz tamamilə yenidən işləyə bilərdik, məncə, o daha doğru olardı.

Bundan başqa, burada yeni məsələlər gündəmə gətirilir. Misal üçün, ictimai dinləmələrin və ictimai müzakirələrin keçirilməsi ilə bağlı. Sanki bunların, ictimai dinləmələrin, ictimai müzakirələrin mahiyyəti eyniləşdirilib. Amma bu ictimai dinləmə ola bilməz. Dinləmə odur ki, əvvəllər deputat istintaq komitələri yaradılırdı, yaxud hər hansı bir komissiya yaradıla və ona tapşırıla bilər ki, bu və ya digər hadisənin və ya aktın araşdırılması üçün vəzifəli şəxslər, yaxud digər vətəndaşlar həmin komissiyaya, yaxud komitəyə dəvət olunsun və onlar dinlənilsin. Dinləmə budur, dünyanın hər yerində, parlamentlərdə bu cür dinləmələr keçirilir. Amma ictimai müzakirə, bu başqa məsələdir ki, qanun layihəsi ictimai müzakirəyə çıxarılır, qeyri-hökumət təşkilatlarının, ayrı-ayrı dövlət orqanlarının, ictimaiyyətin nümayəndələri dəvət edilir və o müzakirələrə qatılırlar. Amma burada, 7.2-ci maddədə ictimai dinləmənin mahiyyəti ilə ictimai müzakirənin mahiyyəti qarışdırılır. 7.2-yə, xahiş edirəm, zəhmət olmasa, diqqət yetirin.

Bundan başqa, ən vacib məsələ barədə mən istəyirəm, fikrimi bildirim. Bu, 13-cü maddə ilə bağlıdır. Bu çox ciddi məsələdir. Burada biz qeyd edirik ki, deputatın iclasda iştirakı mümkün olmadıqda, bu məsələyə onun iştirakı olmadan baxıla bilər. Söhbət nədən gedir? Söhbət İntizam komissiyası tərəfindən deputatın mandatdan məhrum olunması ilə bağlı məsələnin müzakirəsindən gedir. Necə ola bilər ki, deputatın mandatı əlindən alınır, xalq ona mandat verir, biz deyirik, onun iştirakı mümkün olmadıqda. Onda gərək o halları yazaq ki, hansı hallardır onlar. Burada məsələ, məncə, belə qoyulmalıdır ki, deputat özü iştirakdan imtina etdikdə, onun iştirakı olmadan bu məsələyə baxılır. Yəni onun iştirakı olmadan bu məsələni necə müzakirə etmək olar? Burada biz yazırıq ki, iştirakı mümkün olmadıqda.

Yaxud 23.2-ci maddə əlavə edilir. Burada söhbət hansı hallarda Milli Məclisin buraxılmasından gedir. 23.2. Ümumiyyətlə, bu maddənin Daxili Nizamnaməyə daxil edilməsinə ehtiyac yoxdur. 23.2, axı, bizim həll etməli olduğumuz məsələ deyil. Onun Daxili Nizamnamədə öz əksini tapması, yəni konstitusion normanın tamamilə götürülüb Daxili Nizamnaməyə əlavə edilməsi başa düşülən deyil.

Bir də, burada intizam məsuliyyətinə cəlb etməklə bağlı məsələlərdə biz bir neçə yerdə, Ziyafət müəllim, parlamentdaxili məsuliyyətə cəlb olunma ifadəsini işlədirik. Bilirsiniz, onda Prezident Aparatı, Nazirlər Kabineti, hansı isə nazirlik daxili məsuliyyətə cəlb olunmalıdır. Parlamentdaxili məsuliyyət deyilən bir hüquqi termin yoxdur. Onda hər orqan mən söylədiyim kimi yazsın. Burada intizam məsuliyyətindən söhbət gedir. Axırda da intizam tənbehi tədbiri tətbiq olunur. Ona görə də yazılmalıdır ki, intizam məsuliyyətinə, parlamentdaxili məsuliyyətə deyil, intizam məsuliyyətinə cəlb olunan deputat barəsində.

Sonra, deputatlıq səlahiyyətlərinə xitam verilməsi ilə bağlı. Yəni ümumiyyətlə, cinayət törədildikdə deputatın toxunulmazlığına xitam verilməsi məsələsindən söhbət gedir. Yenə eyni qaydada yazırıq ki, deputat iştirak edə bilmədikdə, onun iştirakı olmadan bu məsələyə baxılır. Yenə də mən bu fikirdəyəm ki, əgər deputat özü iştirak etməkdən imtina etmirsə, o halda onun iştirakı mütləq təmin olunmalıdır. Ona görə ki, o, cinayət məsuliyyətinə cəlb olunur, toxunulmazlığı aradan qaldırılır və bu halda deputatın iştirakı zəruridir. Bəlkə iki nəfər elə deputatı şərləyir. Necə onun özünü dinləmədən, fikrini öyrənmədən, barəsində bu cür ciddi – özü də xalqı təmsil edir, xalqın seçdiyi şəxsdir, – qərar vermək olar?

Sonra, İntizam komissiyasının özü ilə bağlı. Hər il İnti-

zam komissiyası yenilənir. İntizam komissiyasını, mən dedim ki, 5 il müddətinə seçək. Özü də yaxşı olar ki, İntizam komissiyasının üzvləri Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, bir də İnsan hüquqları komitəsinin üzvlərindən ibarət olsun. Niyə? Ona görə ki, onlar insan hüquqları üzrə ixtisaslaşıblar. Hüquq siyasəti və dövlət quruculuğu komitəsi də qanunların tətbiqi ilə əlaqədar olaraq ixtisaslaşmış bir komitədir. Yəni burada peşəkarlardır, biri qanunun tətbiqi ilə bağlı düzgün yanaşa bilər, digəri isə insan hüquqlarını önə çəkə bilər və sair. Ona görə də, məncə, bu doğru olar. Özü də 9 nəfərdən yox, hesab edirəm ki, İntizam komissiyasının üzvlərinin sayı ən azı 13 nəfərə çatdırılmalıdır. Bir də, İntizam komissiyasının rəyi əsasında MSK-nın qərar verib deputatı mandatdan məhrum etməsi, hesab edirəm ki, qətiyyən düz deyil. İntizam komissiyasının rəyi mütləq Milli Məclisdə müzakirə olunmalı və Milli Məclis də qərarı Mərkəzi Seçki Komissiyasına göndərməlidir.

Bir də, sonda fraksiyaların yaradılması ilə bağlı. Bizdə, parlamentdə 25 nəfər fraksiya yarada bilər. Biz Cənubi Qafqazda, ümumiyyətlə, regionda tək dövlətik ki, parlamentdə fraksiya yoxdur. Ona görə də bu sayı 10 nəfərə endirmək lazımdır ki, Azərbaycan parlamentində də fraksiyalar olsun. Yəni bizim parlamentimizin imici, görünüşü hamımızı narahat etməlidir. Ona görə ki, bu həm də birbaşa dövlətimizin imicinə bağlı olan məsələdir.

Bir də, burada yazırıq, Nazirlər Kabineti hesabat verir, Hesablama Palatası hesabat verir. Bu hesabatların nəticələri qeyri-qənaətbəxş hesab edilərsə, etimadsızlıq göstərilərsə, bu hallar hansı hüquqi nəticələr doğurur. Hesab edirəm ki, Daxili Nizamnamədə bu da öz əksini tapmalıdır. Biz bunu burada yazmırıq. Amma Konstitusiyada yazılıb

ki, il ərzində iki dəfə biz Nazirlər Kabinetinə etimadsızlıq göstərsək, Milli Məclis buraxıla bilər. Bu o deməkdir, buradan artıq məntiqi nəticə çıxır ki, biz etimadsızlıq göstəririksə, Nazirlər Kabineti mütləq buraxılıb yenidən formalaşdırılmalıdır. Bir il ərzində bunu ikinci dəfə ediriksə, artıq Nazirlər Kabinetinin işləməsinə imkan vermirik ki, o, özünü təsdiq edə bilsin. Ona görə Prezidentə bu halda Milli Məclisi buraxmaq səlahiyyəti verilir. Onun üçün biz burada qeyd etməliyik ki, biz hesabat verərkən bütünlüklə həmin orqanın da fəaliyyətini qeyri-qənaətbəxş...

**Sədrlik edən.** Sağ olun. Musa Quliyev.

**M.Quliyev.** Çox sağ olun. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Mən Milli Məclisin Daxili Nizamnaməsinə edilən əlavələr və dəyişikliklər barədə bir neçə fikrimi söyləmək istəyirəm. Bu əlavə və dəyişikliklərin həm mahiyyəti, həm elə forması ona bənzəyir ki, Milli Məclis seçkili bir orqan deyil, təyinatlı bir orqandır və təyinatlı orqanın rəhbəri necə əmr verib bir işçisini cəzalandıra bilirsə, faktiki biz o formaya gətirib çıxarmışıq. Milli Məclis xalqın seçdiyi bir orqandır. Biz bu il parlamentin 100 illiyini qeyd etdik və fəxrlə hər yerdə deyirik ki, Azərbaycan dünyada, müsəlman Şərqində və türk dünyasında ilk demokratik respublikadır. Bu ilk demokratik respublikanın parlamentində, mən düşünürəm ki, demokratik ənənələrin qorunub saxlanılmasına biz də öz xidmətimizi, töhfələrimizi verməliyik. Bunu oxuyanda, mənə elə gəlir ki, bu dəyişiklikləri deputatlar yazmayıb. Elə bil, kim isə deputatlara qarşı yazıb. Yəni deputata belə münasibət?... İndi biz hamımız gəldi-gedərik, burada heç kim daim oturmayacaq, amma bu millət qalacaq, bu ölkə qalacaq, bu ölkənin parlamenti qalacaq və bəzən deyirlər, deputatlara hörmət edilmir. Deputatlara hörmət edilmə-

məsi elə buradan görünür.

İntizam komissiyasının qərarı ilə bir deputat mandatından məhrum edilir, onu seçən 40 min adamdan da soruşmurlar ki, sənin seçdiyin adamı deputatlıq mandatından məhrum edirik. Qabaqkı qaydalarımıza görə, heç olmasa, Milli Məclisin müzakirəsinə çıxarılırdı. İndi biz niyə bunu Milli Məclisin müzakirəsinə çıxarmırıq? Ona görə çıxarmırıq ki, 9 nəfərə tapşırıq vermək daha asandır, nəinki 125 nəfərə? Belə bir sual da ortaya çıxa bilər. Mən bunu pis niyyətlə demirəm. Sadəcə, bizim qəbul edəcəyimiz Daxili Nizamnamədə, "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda nəzərdə tutulan dəyişiklik yaxşı olardı ki, beynəlxalq ekspertizaya verilsin. Beynəlxalq ekspertizadan keçsin. Biz indi Avropa dəyərlərindən danışırıq, ona doğru da gedirik, amma hesab edirəm ki, biz bu şəkildə o dəyərlərə nail ola bilmirik.

Sonra, başqa məsələ var: "Milli Məclisin deputatı Milli Məclisin iclasında mandatından imtina etdikdə və həmin imtina Milli Məclisin iclasının stenoqramına daxil edildikdə, deputat bu imtinasını geri götürə bilməz." Nə olar, insandır, əsəbiləşə bilər, emosiyaya qapıla bilər, sabah da gələr ki, mən peşman olmuşam. Burada nə olub ki? Biz ona iki-üç gün vaxt verməklə dünya dağılacaqmı?

Mən hesab edirəm ki, əgər Milli Məclisin işini yaxşılaşdırmaq istəyiriksə, Milli Məclisdə müzakirələrə daha çox imkan verməliyik. Deputatlar var, – mənim hər kəsə hörmətim var, – aylarla, illərlə bir dəfə Milli Məclisdə çıxış eləmirlər, seçicisini təmsil eləmirlər. Biz ona bir söz demirik, amma deputat iclasda 3 dəfə iştirak etmədikdə ona deyirik ki, sənin mandatını alırıq. Yaxud da ki, illərlə gəlib iclasda otursun və heç bir fəaliyyət göstərməsin, çıxış eləməsin, təklif verməsin, qanun yazmasın, bu zərər-

lidir, yoxsa bir ayda iki dəfə iclasda iştirak etməmək? Yaxud da komitələrdə biz indi bir deputatın iki komitədə iştirakına icazə vermişik, bu da yaxşıdır, deputatlarımızın da fəallığı artır, komitələrin də işi yaxşılaşır. Tutaq ki, hər hansı bir səbəbdən bir deputat bir ayda Milli Məclisin iki plenar iclasına gəlmədi, üzvü olduğu iki komitənin hər ikisinin iclasına gəlmədi, bunu mandatdan məhrum eləyəkmi? Heç olmasa, institutda, orta məktəbdə dərsə gəlməyəndə ondan sonra əvəzini çıxmağa imkan verirlər, bəlkə biz onlara bu imkanı yaradaq? Bu mənada hesab edirəm ki, biz deputatların statusunu, imkanlarını artırmaq barədə düşünməliyik, nəinki onların fəaliyyətini məhdudlaşdırmaq haqqında.

Eyni zamanda, digər təklifim Milli Məclisin iclaslarında deputatların başqa dildə danışması ilə bağlıdır. Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Deputat da Azərbaycan Respublikasının qanunvericilik hakimiyyətində təmsil olunan ali vəzifəli şəxsdir. Bu, niyə başqa dildə danışmalıdır burada? Hansı məntiq var, bunu anlaya bilmirəm. Tutaq ki, orada iştirak eləyən hər hansı xarici bir qonaq var, filan var, bunu başa düşmək olar. Amma deputatın özü niyə başqa dildə danışmalıdır? Bunu da mən anlaya bilmirəm.

Bütövlükdə, Baş prokurorun təqdimatı ilə bağlı. Yazılıb: "Baş prokurora suallar verilə bilər". Mən hesab edirəm, Baş prokurora, yaxud onun nümayəndəsinə imkan yaratmalıdırlar. Çünki bizim dövrdə bir neçə dəfə belə hadisələr olub, Baş prokurorun təqdimatını özü yox, müavini gəlib oxuyub. Belə çıxır ki, onda onun müavininə heç bir sual vermək olmayacaq, çünki burada yazılır ki, ancaq Baş prokurora suallar verilə bilər.

Ümumilikdə, mən hesab edirəm ki, ikinci oxunuşa

qədər biz burada bir neçə məsələni dəqiqləşdirməliyik, xüsusən deputatın mandatdan məhrum edilməsi ilə bağlı məsələlərə elə-belə yanaşmaq olmaz. Bu, 40 min adamın seçdiyi şəxsdir, 40 min adamı təmsil eləyən adamdır. Bunu iki iclasa gəlmədiyinə görə, yaxud İntizam komissiyasının qərarına görə mandatdan məhrum etmək doğru deyil.

İkinci tərəfdən, İntizam komissiyasının tərkibi barədə. Mən hesab edirəm, 9 nəfərdirsə, biz demokratik ölkəyik, mən Yeni Azərbaycan Partiyasını təmsil edirəm, burada da bizim partiyamız üstünlük təşkil edir, buna baxmayaraq, hesab edirəm ki, burada həm bitərəflərin, həm müxalifət partiyasının namizədi, həm də Yeni Azərbaycan Partiyasının üzvləri olan deputatlar iştirak etsələr, bu, daha demokratik olar. Tənqidi çıxışıma baxmayaraq, mən layihəni bütövlükdə qəbul edirəm. Amma təklif edirəm, ikinci oxunuşa qədər bu tənqidlər nəzərə alınsın və bu münasibətlər bir az yumşalsın. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Fazil Mustafa.

**F.Mustafa**. Çox sağ olun, hörmətli Ziyafət müəllim. Təbii ki, birinci oxunuş olduğuna görə, konseptual münasibət bildirməyi nəzərdə tuturuq. Burada səsləndirilən bir sıra fikirlər var ki, bizim fikirlərlə üst-üstə düşdüyünə görə, çox da təkrarçılığa yol vermək istəmirəm. Amma bütövlükdə – yəni deyilən budur ki, – bu qanun layihəsində deputat fəaliyyətinin müəyyən sahələrinin məhdudlaşdırılması istiqamətində normativ bir bazanın yaradılmasından söhbət gedir. Amma digər tərəfdən həm də deputatın məsuliyyətinin artırılmasının, etik qaydalara əməl etməsi tələbinin daha çox, qabarıq səsləndirilməsinin şahidi oluruq. Mən də deputat həmkarım Qüdrət Həsənquliyevin əlavə və dəyişikliklərlə bağlı fikirləri ilə razıyam, Konstitusiyanın 11, 12-ci fəsillərinə diqqət eləsəniz, Konstitusi-

yanın özündə belə, əlavə və dəyişikliklərin bir-birindən fərqli məsələlər olduğu ortaya qoyulur və Konstitusiya dəyişiklikləri referendum yolu ilə qəbul olunur. Amma əlavələr isə Milli Məclisdə 95 səs çoxluğu ilə qəbul olunmalıdır və bu fərqlər də ona görə qoyulub ki, birində yeni bir normanın yaradılmasından, digərində isə normativ bir yenilik olmadan qanunun məzmununda müəyyən əlavələrin yer almasından söhbət gedir. Bu, analoji olaraq digər qanunvericilik sahəsinə də aid edilir. Ona görə də bu məsələlərdən həm də bir prinsipial məsələ ortaya çıxır. Konstitusiyaya uyğunlaşdırmaq lazımdır.

Deputatın əsas funksiyası nədir – qanunvericilik fəaliyyətində iştirak etmək, qanunların hazırlanmasında, qanunların müzakirəsində iştirak etmək, səs vermək, təkliflərlə çıxış etmək və öz layihələrini təqdim etmək. Deputatın əsas işi budur. Artıq biz parlamentli respublika deyilik, prezidentli respublikayıq. Bundan o tərəfə böyük səlahiyyətləri yoxdur, bu çərçivədən kənara çıxa bilmir. Hətta dediyimiz kimi, bir sıra xarici ölkələrdə təhlükəsizlik orqanları üzərində parlament nəzarəti mövcuddur, bizdə bu istiqamətdə heç bir nəzarət funksiyası da parlamentə aid deyil, ancaq büdcəni təsdiq eləməklə bunu gerçəkləşdirə bilərik. Büdcə müzakirələrində də buna geniş imkanımız olmur. Ona görə də, heç olmasa, qanunvericilik fəaliyyəti ilə bağlı məhdudlaşdırmalara bir daha diqqətlə yanaşmalıyıq. Gələcəkdə bu, orqanın fəaliyyətinin özünün mahiyyətinə uyğun olmayan səviyyədə minimuma endirilməsinə gətirib çıxara bilər.

Burada o fikirlərlə mən razıyam ki, həqiqətən də, fraksiya məsələsi öz həllini tapmalıdır. Onsuz da parlamentdə 10 nəfər müxalifət təmsilçisini toplamaq mümkün deyil, nəinki 25. Neçə illərdir 25 rəqəmi qalıbdır. Amma bu,

gələcəkdə, bilirsiniz, bizə nədə təsir eləyir? Azərbaycanın Avropa Birliyinin müxtəlif qurumlarında təmsil olunması və başqa məsələlərdə. Azərbaycanın Yeni Azərbaycan Partiyasından, bir də xatırladığım qədər, Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasından başqa, heç bir siyasi partiyası Avropa Birliyinin həmin qurumlarında təmsil olunmayıb. Bizim hansısa "mühafizəkarlar"ın, ya "sosialistlər"in, ya da "liberallar"ın qrupunda təmsil olunma imkanlarımız yoxdur. Halbuki, ermənilər, gürcülər tam tərkibdə bütün qruplarda təmsil olunurlar və bu da beynəlxalq səviyyələrdə müzakirələrdə bizim mövqeyimizin zəiflədilməsinə gətirib çıxarır. Ona görə də, ən azı Azərbaycanda biz bir reallığı qəbul eləməliyik ki, formal da olsa, bəzən demokratiyanın müəyyən qaydalarına əməl olunmasından imtina etmək olduqca təhlükəlidir və ziyanlıdır. Gələcəkdə bunun sıxıntılarını təkcə Azərbaycan daxilində yox, həm də beynəlxalq platformada mütləq çəkməli olacağıq.

Dil məsələsi ilə bağlı mən Musa müəllimin fikri ilə tam razıyam. Bu baxımdan ki, bizdə 40 min seçici bir millət vəkilini seçir və indi 1918-ci ilin parlamenti deyil ki, rus milli şurasına, erməni milli şurasına, başqa şuralara yer verilirdi. Burada hamı birbaşa, mütləq çoxluğu azərbaycanlı olan vətəndaşlardan səs alır. Ona görə də o, seçiciyə hansı dildə müraciət edir, seçici ilə hansı dildə təmas quraraq səs alır? Bu səsi alırsa, deməli, bu dili bilməlidir ki, ən azı seçicinin ayağına gedib onun problemləri ilə məşğul olmaq funksiyasını yerinə yetirsin.

Digər tərəfdən, mən burada deputatın etik davranış qaydaları ilə bağlı məsələyə də toxunmaq istəyirəm. Burada, 10.1.2-ci maddədə göstərilir ki, deputat xidməti vəzifəsinin icrası ilə əlaqədar hər hansı fiziki və ya hüquqi

şəxsdən ümumi məbləği 55 manatdan yuxarı olan hədiyyə qəbul edə bilməz. Bu qiymət məsələsi, həqiqətən də, bir az mürəkkəb məsələdir. Burada ağlabatan məbləğ, “55 manatdan yuxarı olan” ifadəsi işlədilməlidir, çünki verilən hədiyyənin hansınınsa qiymətini ölçmək bəzən, ümumiyyətlə, mümkün olmur. Digər tərəfdən, burada, məncə, hədiyyə məsələsində bir az dəqiqləşdirmə aparmaq lazımdır. Maddi imtiyaz yaradan hədiyyədən söhbət getməlidir. Məsələn, kimsə yaradıcı fəaliyyətlə məşğuldur, gedib Türkiyəyə, ona bir ensiklopediya bağışlayıblar, yaxud da bir kitab bağışlayıblar, Azərbaycanda kimsə 100-200 il öncənin Quran kitabını bağışlayıbdır. Bu qiymətsiz hədiyyədir. Buna istənilən adam qiymət qoyub bildirə bilər ki, sən hədiyyə götürdün, bunu İntizam komissiyasına təhvil ver. Yaxud deputat hansısa bir hədiyyəni hansısa bir aparata təhvil verirsə, yaxşı, deputatlıq müddəti qurtarandan sonra, əgər bu, deputatlıq fəaliyyətinə görə nəzərdə tutulursa, həmin hədiyyəni aparatda saxlamağın nə mənası var? Yəni elə bir hədiyyədir ki, kiçik bir heykəl hədiyyə veriblər, heykəltəraşdır, yaradıcı adamdır, kitab veriblər, bu, aparatda ömür boyu saxlanmalıdır? Yəni deputatlıq müddəti bitənə qədər aparatda saxlanması məsələsi, bəlkə də bu formada nəzərdə tutulmalıdır. Amma qiymət məsələsinə bir daha diqqətlə baxmaq lazımdır. Təbii ki, “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunda bu nəzərdə tutulduğuna görə, biz bunu rəqəmlə ölçmürük. Amma heç olmasa, millət vəkili üçün, özümüz təcrübədə rastlaşdığımıza görə, hər şey barəsində sanki məlumat verəcəyimiz üçün imtina etmək, yaxud da təşviş içində qalmağımız doğru deyil.

Digər bir məsələ, İntizam komissiyası ilə bağlı. İntizam komissiyası ilə bağlı maddə artıq qəbul olunub. Razılaşsaq

da, razılaşmasaq da bir çox məsələlər texniki xarakter daşıyır. Mən də istərdim ki, İntizam komissiyasının rəyi mütləq Milli Məclisdə, ən azı Milli Məclisin qərarı ilə təsdiq olunsun. Həm deputatın nüfuzu baxımından, həm də deputat statusuna hörmət baxımından, son qərarı Milli Məclisə verib, oradan Mərkəzi Seçki Komissiyasına göndərilməsi variantı düşünülə bilər. Sonra da məhkəmə proseduru işə düşə bilər. Amma bütün hallarda, belə bir variant varsa, mən İntizam komissiyasının strukturunun dəqiqləşdirilməsinin tərəfdarıyam. Məsələn, mən təklif edərdim ki, İntizam komissiyası 9, yaxud 11 nəfərdən ibarət olsun. Tərkibin konkret komitələrin üzvlərindən ibarət olması doğru deyil. Bu, başqa deputatların hüquqlarının pozulmasına gətirib çıxara bilər. Tərkibin üçdə ikisinin ali təhsilli hüquqşünaslardan ibarət olması tələbi qoyula bilər. Qalanları isə digər ixtisaslı üzvlər ola bilər. Çünki burada söhbət həm də insan haqlarına aid hüquqi qərarlardan gedir ki, ən azı ixtisası olan, müəyyən bilik potensialı olan adamların bu sahədə araşdırma aparması üçün imkan yarana bilər. Mən də o fikirdəyəm ki, artıq bir illik yox, İntizam komissiyası əgər ixtisaslaşmış qurumdursa, 5 il müddətinə seçilməsi və eyni zamanda, İntizam komissiyasının işlək bir qurumunun yaradılmasına da ehtiyac olacaq. Ya da müqavilə əsasında ekspertlərin cəlb olunması, onların fəaliyyətinin ödənişli əsaslarla olması nəzərdə tutula bilər. Çünki konkret deputatın taleyi ilə bağlı məsələdən söhbət gedirsə, bu məsələyə baxıla bilər. Bütövlükdə İntizam komissiyasını bu qanundan irəli gələn müddəalara əsasən yaxşı, ixtisaslaşmış və səviyyəli bir qurum kimi təşkil etmək imkanımız yaranarsa, məncə, onda bu problemin, təşviş yaradan məsələlərin də o qədər də böyük olmayacağı

ortaya çıxa bilər. Yəni hər şey özümüzdən asılıdır. Ən azı bu mərhələyə qədər əgər nəyisə yanlış, ya doğru hesab eləmişiksə, heç olmasa, o qurumun təşkili ilə bu şübhələri ortadan qaldırmağa çalışmalıyıq. Gələcəkdə maddələr üzrə müzakirədə, ikinci oxunuşda konkret fikirlərimizi o istiqamətdə söyləyəcəyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Aqil Abbas.

**A.Abbas**. Təşəkkür edirəm, Ziyafət müəllim. Əvvəla, məndən əvvəl danışanların, demək olar ki, bütün fikirləri ilə razıyam, xüsusən Musa müəllimin dedikləri ilə. Məsələ nədir? Mən həm də bir jurnalistəm, neçə vaxtdır mətbuat, sosial şəbəkələr hamısı Milli Məclisin deputatları, Milli Məclis barədə kinayə ilə, sarkazmla, sataşmalarla "deputatların səlahiyyətləri belə getdi", "filan elə getdi" yazırlar. Mən bilmirəm, əvvəla, qanunda göstərilənlərin çoxu Milli Məclisin Daxili Nizamnaməsində əvvəldən var. Deputat nəyi eləyə bilər, nəyi eləyə bilməz, bunların hamısı var. Yalnız burada əsas iki maddədən söhbət gedir. Qalanları var, bunları təzədən müzakirə edək ki, deputat özünü belə aparmalıdır, elə aparmalıdır. Birincisi, burada 119 deputat var, onların hamısı ziyalıdır və Azərbaycan xalqının tanıdığı adamlardır. Mən inanmıram ki, onlar hansısa etik davranışı pozalar, nə isə hərəkət eləyələr ki, İntizam komissiyasına düşələr. Mən, birincisi, buna inanmıram. İkincisi də ki, 2 iclasa, nə bilim, 3 iclasa gəlməsə, bunu mandatdan məhrum eləyək. Bəlkə valideynlərini çağıraq ki, iclasa niyə gəlmirlər? Belə olmaz axı. Yəni 2 iclasa gəlməmişəm, bəlkə yolda gələndə ayağım burxulub, ya bir hadisə olub. Məsələni bu cür qoymaq, ya bizi, özüm də jurnalist ola-ola, jurnalistlərin qələminə sarımaq, lağ obyektinə çevirmək – mən bunu qəbul eləmirəm. Sosial şəbəkələrə baxırsınız, mətbuata baxırsınız.

İkinci, məni 40 min adam, olsun, 35 min adam, 25 min adam deputat seçib. İndi 9 nəfər, İntizam komissiyası deməlidir ki, "sənə yaxşı yol"? Qardaş, məni sən seçmisən? Siz seçmişdiniz? Qoy Ağcabədi, Füzuli camaatı desin, onlara hüquq verək ki, deputatlarını geri çağırsınlar. Əgər deputat vəzifəsini yerinə yetirə bilmirsə, onların dediklərini həyata keçirə bilmirsə, onları layiqli təmsil eləyə bilmirsə, seçicilərə onu geri çağırmaq səlahiyyəti verilməlidir. Yoxsa, 9 nəfərə yox. Mənim Musa müəllimlə aram yoxdur, İntizam komissiyasının üzvüdür, deyəcək ki, mən Aqili qəbul eləmirəm. Yəni deputata belə münasibət olmaz.

İkinci, bayaq Əli müəllim gözəl söz dedi, mən Əli müəllimi çox istəyirəm, amma dedi ki, müzakirəyə çıxarmaq olmasın. Yaxşı, məni deputatlıqdan məhrum eləyirlər, – "mən" deyəndə söhbət məndən getmir, mən etikanı da bilirəm, hələ bu günə qədər, 12 ildə bir dəfə iclasa gecikməmişəm, dərsə çox tərbiyəli gələn adamam, amma məsələ bundadır ki, müzakirə olunmurdu, qoyun çıxsın. Mən deyim, Əli müəllim deyir ki, Aqil Abbas, həqiqətən, buna layiq deyil. Məni çıxarandan sonra onsuz da aramız dəyəcək də. Ya başqasını. Ona görə mən deyirəm ki, başqaları incıməsin. Yəni məsələni bu dərəcədə, bu cür konkret qoymaq ki, 9 adam, olsun 11 adam, lap elədik 13 adam, deməli, orada qərarı 7 adam çıxardacaq, doqquz adamdırsa, 5-i bəsdir, səs çoxluğudur. Doqquz adamın beşi dedi ki, filankəs etik davranış qaydalarını pozub, neyləyib? Nə bilim? Bu məsələnin bir tərəfi.

İkinci tərəfi, söhbət deputatlara verilən hədiyyədən gedir. Bəli, bütün dünyada 50 dollardan artıq hədiyyə alan deputat həmin hədiyyəni gətirib təqdim edir muzeyəmi, parlamentəmi. Bu, bütün dünyada qəbul olunub. Bizdə də xoş qarşılayırıq ki, olsun. İkinci məsələ də odur ki, 12 ildir

deputatam, mənə heç kim hədiyyə verməyib. Hədiyyə məsələsi, bayaq dedilər, hansı məqsədlə o deputata verilib. Məsələn, getmişəm Füzuliyə, Füzulidə bir dostum mənə qoyun kəsib. Qoyun 150 manat eləyir, gətirib onun 100 manatını kəsib verəcəyəm İntizam komissiyasına? Məsələ bu cür qoyulmalıdır, nə məqsədlə verirlər adama? Ümumiyyətlə, deyirəm, elə məsələlər var ki, burada. Yəni deputatın səlahiyyətini seçicisi ala bilər. Səhv elədiyinə görə, cinayət elədiyinə görə prokurorluğun, hüquq mühafizə orqanlarının göndərdiyi məktub əsasında məsələ qaldırıla bilər, onun da səlahiyyətləri əlindən alına bilər. Amma 9 adam yığışsın ki, bəs, Rafael müəllimin filan yazısı xoşuma gəlməyib, onun deputatlığını götürək, bu düz deyil. Ola bilər, nə çətin şeydir ki. Ümumiyyətlə, deyirəm ki, bir qədər özümüzü qiymətləndirək. Səs verəcəyik, amma hədiyyə məsələsinə və intizam məsələsinə mən səs verməyəcəyəm. Bu, Milli Məclisdir, özü də 100 illiyidir, möhtərəm Prezident başda olmaqla Milli Məclisə hamı hörmət eləyir. Prezident gəlib Milli Məclisdə çıxış eləyir, bizim parlamentin işini yüksək qiymətləndirir. Bu tərəfdən də özümüz başlayırıq, filan məsələ belə getdi, o məsələ belə gəldi.

Ona görə də Ziyafət müəllim, mənə elə gəlir ki, birinci oxunuşdur, bu məsələyə bir az diqqətli olaq. Həqiqətən, hədiyyə məsələsi dünyada qəbul olunub. Mən buna bir söz demirəm. Amma deputat səlahiyyətlərinə xitam verilməsi məsələsinə yenidən baxılmalıdır. İntizam komissiyası, bəli, sağ olsun, desin, burada müzakirə edək, görək, Ülvi müəllim deputatlığa layiqdir, yoxsa layiq deyil. Ya elə Əflatun müəllim, bütün günü jurnalistlərlə dava edir. Ona görə mən də, hörmətli Əli müəllim, xahiş edirəm, ikinci oxunuşda bu məsələyə yenidən baxaq. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Təşəkkür edirəm. Hörmətli Ziyafət müəllim, hörmətli həmkarlar, Aqil müəllimin çıxışından sonra elə onun fikrinin bitdiyi yerdən davam etmək istəyirəm. Bizim hamımız, burada əyləşənlər 90-cı illərdən bu yana ulu öndər Heydər Əliyevin dövlət quruculuğunun həm də parlament hissəsindən danışırlar. Onun cəmi bir neçə ay bu hakimiyyət qoluna, hakimiyyət qurumuna rəhbərlik etməsini, burada daxili müzakirələrin gedişini, formasını, ölkədəki ən ağır gərginlik dərəcəsində parlamenti necə idarə etməsini qeyd edirlər. Biz onu indiki dövrə köçürmək istəyirik. Heydər Əliyevin üzvü olduğu parlamentin səlahiyyətlərini və onun dövlət quruculuğunda yerini axtarırıq. O üzdən, o məramdan çıxış edərək, əlbəttə, bizim hamımız deyirik ki, bu sənədi hazırlayan kimdir. Bayaqdan axtarılırdı, o qələm kimin olubdur, Əli müəllimin, ya digərinin. Dövlət quruculuğu üçün gerçəkdən də tələb olunursa ki, parlamentin səlahiyyətləri Prezident üsul-idarəsinin tələblərinə uyğun, bir qədər fərqli qoyulsun, yəqin ki, onu da səsvermə ilə həll etmək mümkün olacaq. Ancaq dünyanın təcrübəsi var. Bu da ondan ibarətdir ki, güclü dövlətlər yalnız güclü parlamentləri olanda meydana çıxır. Bunun əksi yoxdur. Kim bunu sübut etmək istəyəcəksə, mən ona onlarla, bəlkə yüzlərlə nümunəsini deyə bilərəm. Biz harada səlahiyyətlərdən nəyisə alacağıqsa, o dövlətin hansısa bir sahəsində hiss olunacaq. Məsələn, biz keçmiş nazirlərin fəaliyyəti ilə bağlı mediadan sürəkli olaraq xəbərlər izləyirik. Bizim üzərimizə qoyulan bu tələblər ki, maraqlar toqquşmasından qaçmalıdırlar, xüsusi imtiyazlar əldə etməməlidirlər və sair, əgər o tələblər onlar tərəfindən gözlənilsəydi, bunlar çıxıb gedəndən sonra haqlarında bu boyda "kompromat" niyə mey-

dana çıxırdı? Ona görə də hüquq vahiddir. O, yarı bölünən bir səviyyədə deyil. Bunu etalon kimi, tərif kimi deyirlər. Bu, yalnız parlament qoluna tətbiq oluna bilməz, hakimiyyət qollarının hamısına tətbiq olunmalıdır.

Jurnalist etikası məsələsi də, kooperativ etika da, müəllim etikası da, həkim etikası da var. Parlament etikası məsələləri də güclü bir şəkildə qoyulur. Əli müəllim də haqlı olaraq deyir ki, Avropa Şurası məkanında bu təsbit olunub. Çox doğru deyir. Mən də yüzlərlə nümunə gətirə bilərəm ki, orada çox həssaslıqla yanaşılır. Bu yaxınlarda Amerika Birləşmiş Ştatlarının Konqresində Ali Məhkəməyə Trampın verdiyi namizədin seçkisi ilə bağlı, səsverməsi ilə bağlı məsələyə baxılarkən ta onun orta məktəbdə bir xanımla sevgi münasibətləri olub-olmayıb, o, onun iradəsi altında könüllü olub-olmayıb, ona qədər araşdırdılar. Əgər deputatın da tərcümeyi-halı bütövlükdə dövlətin tərcümeyi-halı üçün çox önəmlidirsə və biz, etikalı deputat dövlətin güzgüsüdür nəzəriyyəsini yaratmaq istəyiriksə, bu sistemi bütün hakimiyyət qollarına tətbiq etməliyik. Onda bu balanslı olacaq, işləyəcək və nəticələrini də verəcək. Yoxsa, güclü etikaya əməl edən parlament, amma qayda-qanunları pozan və sümürgən oğurluqlarla məşğul olan ya nazir, ya başqa bir məmur halında bizim tərbiyəmiz, bizim qanacağımız, bizim mədəniyyətimiz dövlət üçün heç bir effekt vermir.  Birinci bunu demək istəyirdim.

İkinci, burada Səfa müəllim kimi Azərbaycanın hüquq məkanına töhfəsi olan bir insan əyləşib. Ziyafət müəllim də Konstitusiya sahəsi üzrə, hüququ üzrə ən yaxşı mütəxəssislərimizdən biridir. Dünya parlamentlərinin ayrı-ayrı hallarda o səlahiyyəti var ki, onlar məhkəmənin də ayrı-ayrı istintaq-əməliyyat tədbirləri funksiyalarını, səlahiyyətlərini öz üzərlərinə götürürlər. İndi bizim bu qanu-

numuzun ayrı-ayrı müddəalarından o nəticə çıxacaq ki, biz məhkəməyə, məsələn, deyəndə ki, siz dünən Eldar Mahmudovun cinayətlərində iştirak etmisiniz, bu gün ona görə üzgörən münasibət tutursunuz, yaxud prokurorluq orqanlarına bunu deyəndə və sabah onlar bizi şantaj edəndə, bu məsələ parlamentə çıxanda çox rahatlıqla bunu maraqlar toqquşması kimi qələmə vermək olar. Deyərlər, o məhkəməyə bizim qərəzimiz var. Biz isə, sadəcə, qanun istehsalı səlahiyyətindən danışırıq. Çox səmimiyyətlə deyirəm, bu gün bu sənədlə bağlı müzakirədə heç iştirak etməmək imkanımız var. Özü də ən çox da deyilən söz budur ki, bunların bir qismini biz əvvəl qəbul etmişik. Doğru. Lakin ən çox qorxu ondan ibarətdir ki, yazılan bir, tətbiq olunan daha fərqli ola. Yəni o ola ki, bu siyasi təzyiq alətinə dönə, özünüsenzura alətinə çevrilə. Axı, biz deyirik, bu parlamentin böyük əksəriyyəti hakim partiyanın üzvləridir. Bunlar nə qədər güclü, nə qədər nüfuzlu olacaqlar, dövlət o qədər güclü və nüfuzlu olacaq. Çünki zəif parlament öz mənafelərini qoruya bilmədiyi halda, ona cəmiyyətdən tənqidlər gəldiyi halda, o zərbələr bu dövlətə də dəyəcək. Ona görə ki, gücsüz deputata cəmiyyətdə dərhal o fikir deyiləcək ki, sən özünü qoruya bilmirsən. Ona görə mən bu məsələ ilə bağlı maddələrə keçməmişdən qabaq onu demək istədim.

İntizam komissiyası necə formalaşacaq, nə cür olacaq – bunu qırağa qoyuram. Çətini, deyək ki, ona müəyyən məhkəmə səlahiyyətləri verməkdir. Qardaşlar, bu İntizam komissiyasının üzvləri, axı, elə parlamentdən seçilir. Siz bunu dövlət idarəetmə sisteminin başqa bir qurumu ilə eyni götürə bilməzsiniz. Çünki təyinatlı orqanda daxili intizam tədbirləri və onların məsələsinə baxış qaydalarını normativ olaraq götürüb xalqın iradəsini təmsil edən başqa

bir hakimiyyət orqanı üçün eyni ilə tətbiq edə bilməzsiniz. Mənim yanaşmam bundan ibarətdir.

Başqa bir mühüm məsələ. Avropa Şurası arealında bir çox sərt qaydalar var. Hörmətli Əli müəllim buna çox haqlı olaraq istinad elədi. Amma Avropa Şurası arealında həmin parlamentlərin hökumət üzərində çox güclü nəzarəti var, ondan da o yana, Avropa Şurası arealında lobbiçiliklə bağlı məsələ var. Kimsə deputatı "Koka-kola" şirkətinin maraqlarını parlamentdə bu və ya digər formada müdafiə etdiyinə görə ittiham etmir. İndi siz baxın, bura bir maddə yazılıb ki, nəinki maddi imtiyaz, o cümlədən mənəvi üstünlüklər yaratdığı təqdirdə, bu, onun üçün müəyyən bir məsuliyyət yaradır. Belə hesab edək ki, mən QHT-də bir insanı tanıyıram və ona çox rəğbətlə yanaşıram. Bəs mən nə edim, rəğbət göstərməyim? Sabah bu adam İctimai televiziyanın Yayım Şurasına seçilir və ona deyirik ki, səni ora seçirəm, yəni seçilməyində çox fəal olacağam, onlarla parlament üzvü arasında təşviqat da aparacağam, lobbiçiliyini edəcəyəm, sabah sən İctimai televiziyanın rəhbərliyində yer alanda mənə efir məkanından bir bucaqdan yer verərsən. 3 gün sonra bu məsələ faş olur. Nizamnaməyə görə də tələb olunur ki, bu hallar haqqında komissiyaya məlumat verilsin. Verilmədi məlumat, 1 aydan sonra məsələ qoyulur ki, sən İctimai televiziyaya çox çıxırsan. Niyə? Çünki sən keçmişdə səsvermədə bu adamın şuraya seçilməsində bu xəyalla rol oynamısan ki, gələcəkdə burada rol alasan. Ona görə, vallah məndən olsa, açıq desəm, arqumentlərimi bir qədər daha da sistemləşdirərdim. Mən elə düşünürdüm, müzakirə ayın 2-də olacaq, hətta gördünüz ki, çıxışa da biz az gec yazıldım. Çünki elə düşünürdüm ki, bu məsələlər onda müzakirə olunacaqdır.

Yekun olaraq, əlbəttə, mən hesab edirəm, burada mövqe ondan ibarətdir ki, biz parlamentin 90-cı illərdən olan səlahiyyətlərinə müəyyən qədər yenidən baxaq. Bunu da çox açıq demək lazımdır. Burada qətiyyən narahat olmaq lazım deyil. Mən hesab edirəm ki, güclü prezidentlik üsul-idarələri dönəmində parlamentlərin səlahiyyətinə fərqli münasibət varsa, bunu aydın demək lazımdır. Mənə elə gəlir ki, burada hər kəs dərhal özünü vəziyyətə uyğunlaşdıracaq, ona uyğun aparacaq. Dövlət institutları da o qaydada işləyəcək. Yoxsa, sətiraltı, mətnaltı olanda bu, mediada yayılan, parlamentin üzvlərinin səlahiyyətlərinə baxılır və sair kimi yanlış reaksiyalar doğurur. Halbuki baxdığımızda gerçəklik budur ki, qətiyyən deyildiyi qədər sərt, kəskin nəsə, yaxud bir qəsd nəzərdə tutulmayıb.

İndi kimsə deyəcək, 55 manat azdır, çoxdur. 100 olsun, 150 manat olsun. Sonra da deyəcəklər ki, deputatlar özlərinə gün ağlayırlar ki, hədiyyənin məbləğini artırsınlar. Ancaq mənim aləmimdə prinsipial olaraq, yəni bu sənəddən çıxan nəticəni özümüz üçün dəqiqləşdirməliyik. Mən gerçəkdən bu sənədə səs verəcəyəm. Amma mənim üçün məramı aydın deyil, yəni məramımız odursa ki, deputatların səlahiyyətlərinə baxılsın, onu ayrı bir sənədlə etmək lazımdır. Aydın demək, aydın da müzakirəyə çıxarmaq lazımdır. Bu qədər. Sağ olun.

**Sədrlik edən.** Zahid müəllim, məncə, Siz Avropa Şurasının arealı deyil, coğrafiyası demək istəyirdiniz? Rasim Musabəyov.

**R.Musabəyov.** Təşəkkür edirəm, Ziyafət müəllim. Burada mənim demək istədiyim sözlərin böyük əksəriyyətini həmkarlarım dilə gətirdilər, ələlxüsus Qüdrət müəllim, Musa müəllim. Fikirləri bölüşürəm, ona görə təkrar etmək istəməzdim. Sadəcə olaraq, diqqəti ona cəlb etmək istəyir-

dim ki, etik normaların pozulması hər halda cinayət törətmək demək deyil. Cinayət olduğu halda, prokurorun təqdimatı ilə deputatın toxunulmazlığı məsələsini biz burada müzakirə edib qərar veririksə, indi etik qaydaları pozmağa görə, eyni zamanda, mandatla yanaşı, toxunulmazlığın da itirilməsi məsələsinin Milli Məclisin ümumi rəyi olmadan 9 nəfərə həvalə edilməsi, mənə elə gəlir ki, məntiqə uyğun deyil. Bu qurum, İntizam komissiyası Milli Məclisin qurumudur. O, öz rəyini Milli Məclisə təqdim etməlidir. Sədrə yox, MSK-ya yox. Bizim nəinki o rəyi rədd etməyə, İntizam komissiyasının işində, fəaliyyətində qərəz gördüyümüz halda o İntizam komissiyasını buraxıb təzə tərkibdə seçməyə də səlahiyyətimiz çatır. Buna görə, hesab edirəm ki, hər bir halda o rəy mütləq şəkildə Milli Məclisə təqdim edilməli və müzakirədən sonra səs çoxluğu ilə qəbul olunmalıdır. Bu qədər. Təşəkkür edirəm.

**Sədrlik edən.** Aydın Hüseynov.

**A.Hüseynov.** Hörmətli deputat həmkarlarım, səsləndirilən hər bir fikrə çox hörmətlə yanaşıram və istərdim bir fikrimi sizinlə bölüşəm. Bizim hər birimiz, parlamentdə oturan hər bir millət vəkili bir seçim vasitəsi ilə bura gəlib, yəni alternativ şəkildə seçiliblər. Seçkilərdə namizədlərin alternativ şəkildə ən yüksək səviyyəli olanları və bu gün, ümumiyyətlə, cəmiyyətdə nüfuzu olan insanlar seçiliblər. Deməli, bizim hər birimiz, belə deyək, o yarışdan, o seçimdən çıxmışıq. Əgər hər hansı bir müsabiqənin şərtləri çox olarsa, seçim daha etibarlı sayılır və o şərtlər daxilində 11, 15, 20, 21 şərti ödəyən daha layiqli hesab olunur.

Mən səsləndirilən hər bir fikrə çox hörmətlə yanaşıram. Hesab edirəm ki, biz indi növbəti seçkini fikirləşək. Növbəti seçkidə seçici deyəcək ki, əgər kim etikanı pozarsa, 9

nəfər səs verib onu parlamentdən uzaqlaşdıracaq. Bunun özü nədir? Deməк, artıq o millət vəkili özü də konkret müəyyənləşdirir ki, mənim gələcək fəaliyyətimdə hər hansı bir məsələ, etika pozuntusu və yaxud digər nəsə pozuntu halı olarsa, 9 nəfər komissiya üzvü səs verib məni deputatlıqdan çıxaracaq. Yəni mənim subyektiv düşüncəm bundan ibarətdir. Biz bütün bu şərtləri yerinə yetiririksə, əslində, bu bizim nüfuzumuz deməkdir. Əslində, biz parlamentdə bütün fəaliyyətimiz müddətində bir neçə şərtə əsasən o məsuliyyəti üzərimizə götürürük ki, bu tələbləri yerinə yetirəcəyik. Biz bu Nizamnaməyə riayət edəcəyik. Əslində, bu, bizi, millət vəkillərini, mən belə fikirləşirəm, indi deyilən kimi, nüfuzdan salmır. Əslində, biz yaxşı mənada üzərimizə bundan da ağır şərtləri, bundan da çox sayda müəyyən etik davranış formalarını götürməklə, cəmiyyətdə bir nümunə olmaq dərəcəsinə çata bilərik. Mən hesab edirəm ki, bu məsələlərdən qorxmağın, çəkinməyin yeri yoxdur. Mən belə hesab edirəm. Sağ olun.

**Sədrlik edən.** Düz edirsiniz, Aydın müəllim. Mən də elə hesab edirəm.  Çox təşəkkür edirəm.

Hörmətli deputatlar, hörmətli həmkarlar! Mən artıq qeyd etdim, bu birinci oxunuşdur. Mən hamınıza təşəkkür edirəm, çox gözəl fikirlər söylədiniz, qeydlər etdiniz, müəyyən narahatlıqlar da oldu, bu da başadüşüləndir. Amma sizə tam səmimi deyirəm, bu qanun layihələri heç bir halda deputatların əleyhinə yönəlməyib. Sizə tam səmimi deyirəm. Niyə? Allah qoysa, ikinci oxunuşda səbəbini deyəcəyik. İndi isə, əgər etiraz etmirsinizsə, biz bu qanun layihələrini birinci oxunuşda səsə qoymalıyıq. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi”ndə dəyişikliklər edilməsi

haqqında qanun layihəsi barədə. Xahiş edirəm, bu qanun layihəsinə birinci oxunuşda münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 17.19 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 4 |
| Bitərəf | 2 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Buyurun.

| **Səsvermənin nəticələri** | (saat 17.20 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 6 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi, birinci oxunuş. Buyurun, bu qanun layihəsinə də səs verək.

| **Səsvermənin nəticələri** | (saat 17.21 dəq.) |
|---|---|
| Lehinə | 90 |
| Əleyhinə | 2 |
| Bitərəf | 3 |

| | |
|---|---|
| Səs verмədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Hörmətli deputatlar, bizim hələ vaxtımız var, saat 6-ya 40 dəqiqə qalır. Ona görə, vaxtdan səmərəli istifadə etmək üçün mən təklif edirəm, əgər hörmətli Əhliman müəllim etiraz etmirsə, Psixoloji yardım haqqında qanun layihəsini birinci oxunuşda müzakirə edək və bununla da iclasımızı sona yetirək. Buyurun, Əhliman müəllim.

**Ə.Əmiraslanov,** *Milli Məclisin Səhiyyə komitəsinin sədri.*

Çox hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri! Respublikamızda əhaliyə göstərilən psixoloji yardımın sistemləşdirilməsi, qanuni əsaslarının yaradılması, psixoloji yardımın kim tərəfindən göstərilə bilməsi, psixoloji yardım göstərən və yardım alan şəxsin hüquq və vəzifələrinin müəyyən edilməsi və sair sahədə münasibətlərin tənzimlənməsi zərurəti Psixoloji yardım haqqında Azərbaycan Respublikası qanununun hazırlanmasının vacibliyini sosial sifariş kimi ortaya qoymuşdur.

Psixologiya psixi halların və proseslərin yaranması qanunauyğunluğunu, fəaliyyətini və ünsiyyətin psixoloji problemlərini öyrənən elmdir. Psixologiya fundamental nəzəri və tətbiqi sahələrə bölünür. İnsan bioloji varlıq olduğundan psixologiya fiziologiya, psixiatriya, nevrologiya, neyrobiologiya, məhkəmə təbabəti kimi təbiət elmləri ilə, sosial varlıq olduğu üçün isə psixologiya fəlsəfə, tarix və pedaqogika elmləri ilə sıx əlaqədədir. Psixoloji yardım tətbiqi psixologiyanın bir sahəsi olub, insanın sosial-psixoloji rifahının yüksəlməsinə xidmət edir. Psixoloji

yardım bizim ölkəmiz üçün nisbətən yeni bir fəaliyyət növü olmasına baxmayaraq, bu yardıma müraciət edənlərin sayı ilbəil artmaqdadır. Hazırda respublikamızın təhsil müəssisələrində 3 min nəfərdən çox psixoloq müəllim çalışır. Ali təhsil müəssisələrində 350 nəfər psixologiya ixtisası üzrə təhsil alır. Bu ixtisas üzrə ildə 130–150 nəfər ali təhsilin bakalavr pilləsinə, 40–50 nəfər isə magistratura pilləsinə qəbul olunur. Son illərdə Bakı şəhərinin 24 böyük tibb müəssisəsində 35 psixoloq ştatı açılmış, həmçinin respublikanın 7 böyük şəhər və rayonunun səhiyyə müəssisələrində psixoloq vəzifəsi təsis edilmişdir. Müdafiə, Fövqəladə Hallar, Ədliyyə, Daxili İşlər, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri sistemlərində də psixoloq kadrları çalışmaqdadır. Özəl sektorda, xüsusilə Bakı şəhərində psixoloq fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin sayı da getdikcə artır. Lakin psixoloji yardım göstərilməsinin hüquqi bazasının olmaması səbəbindən, xüsusilə özəl sektorda bu fəaliyyət növü heç bir norma ilə tənzimlənmir. Bir çox hallarda psixoloq təhsili olmayan şəxslər çox sərbəst şəkildə psixoloji yardım kabinetləri açaraq bu fəaliyyətlə məşğul olurlar.

Qeyd olunan boşluqların aradan qaldırılması və ölkə əhalisinə göstərilən psixoloji yardımın keyfiyyətinin yüksəldilməsi məqsədilə Azərbaycan Respublikası Milli Məclisinin Sədri cənab Oqtay Əsədovun tövsiyəsi ilə Səhiyyə komitəsi tərəfindən Psixoloji yardım haqqında qanun layihəsinin hazırlanması üçün 2015-ci ilin sonlarında işçi qrupu yaradılmışdır. İşçi qrupunun tərkibinə Səhiyyə komitəsinin üzvləri, Milli Məclis Aparatının Sosial qanunvericilik şöbəsinin əməkdaşları, Səhiyyə və Təhsil nazirliklərinin mütəxəssisləri, eləcə də özəl sektorda çalışan psixoloqlar daxil edilmişlər. İşçi qrupu tərəfindən

qanun layihəsi hazırlanarkən Avropa Birliyinin model qanunu, həmçinin Avstriyanın, Finlandiyanın, Belarusun və Rusiya Federasiyasının, ABŞ-ın Kaliforniya, Virciniya ştatlarının psixoloji yardım haqqında qanunvericiliyi ətraflı öyrənilmişdir.

Qanun layihəsi 2016-cı il oktyabrın 26-da Səhiyyə komitəsində ictimai müzakirəyə çıxarılmış, müzakirədə dövlət və özəl sektorda çalışan psixoloqlar, bu sahəyə aid nazirliklərin və QHT sektorunun nümayəndələri iştirak və çıxış etmişlər. Müzakirə zamanı söylənilən fikirlər nəzərə alınmaqla, layihə üzərində uzun müddət təkmilləşdirmə işi aparılmış və əlaqədar təşkilatlara rəyə göndərilmişdir. Qanun layihəsi barəsində Azərbaycan Respublikasının Təhsil, Səhiyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə, Maliyyə, Daxili İşlər, Fövqəladə Hallar, Gənclər və İdman, Müdafiə nazirlikləri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Ombudsman Aparatı öz rəy və təkliflərini verməklə, qanun layihəsinin qəbul olunmasına müsbət münasibətlərini bildirmişlər. Qeyd edilən icra orqanlarından daxil olan təkliflər işçi qrupu tərəfindən diqqətlə öyrənilmiş, mümkün və zəruri hesab edilən bütün təkliflər qanun layihəsində öz əksini tapmışdır.

Səhiyyə komitəsinin 2017-ci il 28 fevral tarixli iclasında qanun layihəsi ətraflı müzakirə olunmuş, komitə iclasına dəvət edilmiş psixologiya sahəsində görkəmli alimlər, deputat həmkarlarımız Səməd Seyidov, İsa Həbibbəyli, Ağacan Abıyev, Bəxtiyar Əliyev, habelə Təhsil Nazirliyinin şöbə müdiri Həbib Kərimov, Səhiyyə Nazirliyinin Psixi Sağlamlıq Mərkəzinin direktoru Fuad İsmayılov və Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun direktoru İlham Məmmədzadə qanun layihəsi barədə dəyərli fikirlər söyləmiş, təkliflər vermişlər.

Hörmətli millət vəkilləri, Psixoloji yardım haqqında Azərbaycan Respublikası qanununun layihəsi 6 fəsil, 22 maddədən ibarətdir. Layihənin "Ümumi müddəalar" adlanan 1-ci fəsli qanunda istifadə olunan əsas anlayışları, qanunun tətbiq sahəsini, psixoloji yardımın növlərini və formalarını müəyyən edir. Psixoloji yardımın növləri psixoloji profilaktika və maarifləndirməni, psixoloji konsultasiyanı, psixoloji dəstəyi, psixoloji diaqnostikanı, psixoterapiyanı, psixoloji reabilitasiya və psixoloji korreksiyanı, psixoloji ekspertiza və psixoloji treninq üsullarını nəzərdə tutur. Psixoloji yardım forması bilavasitə və vasitəli, təcili, birdəfəlik, qısamüddətli, uzunmüddətli, iştirakçıların sayından asılı olaraq fərdi, ailə və qrup şəklində göstərilə bilər.

Qanun layihəsinin 2-ci fəsli "Psixoloji yardım sahəsində dövlət siyasəti" adlanır və psixoloji yardımın göstərilməsində dövlətin vəzifələrini, psixoloji yardımın maliyyələşdirilmə mənbələrini və psixoloji problemlərin yaranma riski yüksək olan əhali qrupları arasında profilaktik təbirlərin həyata keçirilməsi qaydalarını müəyyən edir.

Qanun layihəsi dövlət büdcəsindən əlavə maliyyə ayrılmasını tələb etmir. Dövlət büdcəsindən maliyyələşən təşkilatlarda psixoloji yardımın mövcud ştatlar və büdcə daxilində göstərilməsi, özəl sektorda isə psixoloji yardım alan şəxsin vəsaiti hesabına maliyyələşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsinin 3-cü fəsli "Psixoloji yardımın prinsipləri" adlanır və 8, 9, 10-cu maddələri əhatə edir. Psixoloji yardımın göstərilməsinin əsas prinsipləri – könüllülük, qanunçuluq, humanistlik, insan və vətəndaş hüquq və azadlıqlarına əməl edilməsi, habelə psixoloji yardımın anonimliyi barədə hüquqi əsaslar bu fəsildə öz əksini tapmışdır.

Layihənin 4-cü fəsli “Psixoloji yardım iştirakçılarının hüquq və vəzifələri” adlanır və 11, 12, 13, 14-cü maddələri özündə birləşdirir. Bu fəsildə psixoloji yardım göstərən və psixoloji yardım alan şəxslərin hüquq və vəzifələri, habelə psixoloji yardımdan  imtina edilməsinin və ya dayandırılmasının hüquqi əsasları öz əksini tapmışdır.

İctimai və sosial həyatımızın bütün sahələrində psixoloji yardım göstərilməsinə ehtiyac vardır. Lakin təhsil və səhiyyə müəssisələrində psixoloji yardıma daha çox tələbat olduğundan, bu müəssisələrdə psixoloji yardımın göstərilməsi xüsusiyyətləri layihənin 5-ci fəslində daha geniş şəkildə şərh edilmişdir. Qanun layihəsinin sonuncu 6-cı fəsli “Yekun müddəalar” adlanır və psixoloji yardım sahəsində tədqiqatlar, Azərbaycan Psixoloqlar Şurası, qanunun pozulmasına görə məsuliyyət məsələlərini özündə əks etdirir.

Son olaraq qanun layihəsinin hazırlanmasında əməyi olan hər kəsə Səhiyyə komitəsinin adından bir daha təşəkkürümü bildirir və ümid edirəm ki, bugünkü müzakirədə söyləniləcək fikirlər Psixoloji yardım haqqında qanun layihəsinin daha da təkmilləşməsinə və zənginləşməsinə kömək edəcəkdir. İnanıram ki, hörmətli millət vəkillərimiz onlara təqdim olunan qanun layihəsinin müzakirəsində fəal iştirak edəcək və layihəni dəstəkləyəcəklər. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim, təşəkkür edirəm. Hörmətli deputatlar, artıq qeyd olunduğu kimi, qanun layihəsi birinci oxunuşda konseptual baxımdan müzakirəyə çıxarılır. Ona görə xahiş edirəm, qısa, konseptual olaraq qanun layihəsinə qiymət verək. Etiraz eləmirsinizsə, 5 dəqiqəlik çıxışlara keçək, çünki yazılanlar çoxdur. Etiraz yoxdur? Qəbul olundu. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev**. Təşəkkür edirəm, Ziyafət müəllim! Mən ilk öncə Oqtay müəllimin özünə minnətdarlığımı bildirmək istəyirəm ki, belə bir qanun layihəsinin hazırlanmasını tövsiyə edib. Bundan başqa, hörmətli Əhliman müəllimə, müvafiq komitənin üzvlərinə, işçi qrupunun üzvlərinə öz dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm. Mən qanunla tanış oldum, doğrudan da, mükəmməl qanun hazırlanıb. Hörmətli Əhliman müəllim qeyd etdi ki, beynəlxalq praktika da öyrənilib və qanunla tanış olanda dərhal hiss edilir, doğrudan da, layihə üzərində böyük zəhmət çəkilib, böyük iş görülüb. Burada, əlbəttə, psixoloji yardımın xüsusilə konfidensiallığı və anonimliyi ilə bağlı müddəalar çox təqdirəlayiqdir.

Amma Əhliman müəllim, diqqətinizi iki məsələyə cəlb etmək istərdim. Birinci məsələ. Dövlətin vəzifələri ilə bağlı hissədə qeyd olunur ki, dövlət həm psixoloji məsləhət, həm də maarifləndirmə fəaliyyətini həyata keçirir. Amma maarifləndirmə fəaliyyəti hansı formada həyata keçirilir? Hesab edirəm, qanunda bununla bağlı müəyyən məsələlər, xüsusilə sosial reklamların televiziyalar vasitəsilə yayımlanması öz əksini tapsaydı, doğru olardı. Bizdə son vaxtlar hamımız bilirik ki, xüsusilə gənc ailələrdə boşanmaların sayı xeyli dərəcədə artıb. Ona görə, bəlkə düşünək, bu qanuna daxil eləyək ki, necə indi nikaha girəndə insanlar vətəndaşlıq aktlarının qeydiyyatı şöbəsinə tibbi arayış təqdim edirlər, onlar psixoloqla söhbət barədə də eyni qaydada müvafiq arayış təqdim eləsinlər. Niyə? Valideynlər, etiraf edək ki, xüsusilə də rayonlarda bəzən övladlarını nikaha girməyə məcbur edirlər. Onların bəzisi toy günü qaçır, bəzisi toydan sonra, uşaq olandan sonra başqasına qoşulub qaçır. Bu yaxınlarda ağır bir faciə barədə eşitdik ki, toydan sonra qızın qoşulub qaçdığı həmin oğlanı

döyüb qətlə yetiriblər. Bu, böyük bir faciədir. Buna görə də belə bir məsələnin üzərində ciddi düşünmək, mütəxəssislərin də fikrini öyrənmək lazımdır ki, doğrudan da, gənc ailələr, heç olmasa, ailədə problem yarandıqda psixoloqa müraciət eləsinlər. Boşanmaların sayı həddən artıq artıb.

Bu iki məqamı, sadəcə olaraq, diqqətinizə çatdırmaq istəyirdim. Amma, ümumən, qanun mükəmməl qanundur. Gec də olsa, bu qanunu qəbul edirik. Azərbaycanda bu qanuna çox böyük ehtiyac var. Mən, bilirsiniz, nəyə təəssüf edirəm? Doğrudan da, psixoloq peşəsinin nə qədər zəruri peşə olmasını, insanların buna nə qədər böyük ehtiyacının olmasını biz indiyə qədər əhalimizə çatdıra bilməmişik. Mən niyə burada konfidensiallığı dedim, anonimliyi dedim? Bəzi insanlar hətta psixoloqa zəng etməyə, onun yanına getməyə utanırlar. Telefon vasitəsilə, burada var ki, yardım ala bilərlər, hətta anonim formada yardım ala bilərlər. Psixoloqlar xüsusilə məktəblərdə məktəblilərlə söhbət eləməlidirlər. Bununla bağlı xarici ölkələrdə gözəl film çəkilib. Necə psixoloq hər bir tələbə ilə, hər bir məktəbli ilə işləyir. Hesab edirəm, Azərbaycanda da bu ənənəni yaratmaq lazımdır. Ümid edirəm ki, bu qanun buna yol açacaq. Sağ olun.

**Sədrlik edən.** Tahir Rzayev.

**T.Rzayev**. Çox sağ olun. Hörmətli deputat həmkarlarım, müzakirəyə çıxarılan bu qanunun indiki dövrdə dünyada baş verən ziddiyyətli hadisələr, streslər, böhranlar yaşandığı, informasiyanın geniş yayıldığı, həm də bir çox neqativ halları ilə şüurları zəhərlədiyi, insanların mənəviyyatına ziyan vurduğu, müharibələrin, yalanların, ədalətsizliklərin insanlara əzab verdiyi bir vaxtda qəbul edilməsi çox vacibdir. Xocalı soyqırımının şahidi olan, bu əzabları yaşayan, bu müharibələri görən, dünyada baş verən ikili standartların, ədalətsizliklərin şahidi olan insanların psixoloji durumu necə ola

bilər? Ona görə də biz insanlarımızı stresdən azad etmək üçün belə qanunların qəbuluna üstünlük verməliyik.

Mən də deputat həmkarlarımın təklifinə tərəfdar çıxıram. Bu qanunun müzakirəyə çıxarılmasında əməyi olan hər bir kəsə, Milli Məclisin rəhbərliyinə, Səhiyyə komitəsinə, eləcə də deputat həmkarlarıma öz minnətdarlığımı bildirirəm. Qanun həyatımızın, demək olar ki, bütün sahələrini – ailəni, məktəbi, müəssisə-təşkilatları, müdafiə, təhlükəsizlik sistemini, eləcə də, digər sahələri əhatə edir, çox vacibdir.

Deputat həmkarım çox yaxşı dedi ki, bu gün ölkədə psixoloji durumu gündən-günə pisləşən insanların sayı artır. Bizim psixoloqlara çox ciddi ehtiyacımız var. Ona görə də qanunda psixoloji yardım alanlarla bərabər, yardım göstərənlərin vəzifələrinin, hüquqlarının, səlahiyyətlərinin ətraflı göstərilməsi yaxşı haldır. Bu imkan verir ki, gələcəkdə qanun işlək bir sənədə çevrilsin. Əlbəttə ki, qanunun qəbulu ilə əlaqədar müəyyən problemlər aradan qaldırılacaq. Bu ilk növbədə ixtisaslı, təcrübəli, bacarıqlı psixoloqların hazırlanmasına yönəldiləcək, istiqamət verəcək. Çünki açığını demək lazımdır ki, Azərbaycanda bu gün bacarıqlı, qabiliyyətli psixoloqlar çox azdır. Xüsusilə bizim məktəblərimizdə psixoloq kadrlara böyük ehtiyac var.

Hörmətli Əhliman müəllim dedi ki, məktəblərimizdə 3 min nəfər psixoloq müəllim çalışır. Ancaq mən elə bilirəm ki, bu qat-qat artıq olmalıdır. Çünki xarici ölkələrdə bir neçə yüz nəfərə bir psixoloq düşdüyü halda, bizim məktəblərdə, – elə böyük məktəblərimiz var, orada 2 min, 3 min şagird oxuyur, – cəmi 1-2 nəfər psixoloq var. Bu psixoloqların da həyat şəraiti, maddi vəziyyəti yaxşı deyil. Çünki məktəbdə işləyən psixoloqun aylıq əmək haqqı əgər 150–190 manat çərçivəsindədirsə, o, heç bir xidmət, lazımi yardım göstərə bilməz. Eləcə də, tibb müəssisələrində

bacarıqlı, təcrübəli psixoloqlara böyük ehtiyacımız var. Dünya praktikasından görürük ki, insanlar psixoloji durumunda müəyyən sarsıntıların yarandığı ilk müddətdə tibb müəssisələrinə, psixoloqlara müraciət edir və xüsusi yardım alırlar. Bundan sonra onların vəziyyəti çətinləşmir. Əslində, bizdə bəzi insanlar yalnız vəziyyətləri kəskinləşdiyi halda tibb müəssisələrinə müraciət edir və lazımi yardım ala bilmirlər.

Qanun əhatəlidir, dili sadədir, konkretdir. Ona görə də birinci oxunuşun tələblərinə tam cavab verir. Mən elə bilirəm, plenar iclasda ikinci oxunuşda müzakirəyə çıxarıla bilər və o müzakirədə də müəyyən maddələr haqqında öz fikirlərimizi bildirməliyik. Diqqətinizə görə çox sağ olun.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini* ***Bahar Muradova*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun, Tahir müəllim. Aqiyə Naxçıvanlı.

**A.Naxçıvanlı.** Hörmətli millət vəkilləri, Psixoloji yardım haqqında qanun layihəsi bu günün sosial sifarişidir və cəmiyyətimiz üçün çox vacib bir sənəddir. Belə bir qanun layihəsinin təqdimatına görə hörmətli Əhliman müəllim başda olmaqla, Səhiyyə komitəsinə təşəkkür edirik. Qanun layihəsi, əlbəttə ki, birinci oxunuşda olduğundan bəzi məsələlərin nəzərə alınması üçün təkliflər vermək istərdim.

Qanun layihəsinin "Əsas anlayışlar" adlanan 1-ci maddəsinin 1.0.2-ci maddəsində psixoloqun tərifi verilir və qeyd olunur ki, "psixoloq psixoloji yardım göstərmək hüququ olan mütəxəssisdir". Düşünürəm ki, bu maddədə "psixoloq psixoloji yardım göstərmək hüququ olan ali

təhsilli mütəxəssisdir” ifadəsi yazılsa, daha məqsədəuyğun olardı. Çünki psixoloji yardım göstərən şəxsin peşəkar olması, yəni ali təhsilə malik olması çox vacib bir məsələdir. Mən düşünürəm ki, burada çıxış edən həmkarlarım tamamilə düzgün dedilər ki, artıq institutlarda sosial işçilərin, psixoloqların hazırlanmasına, yəni peşəkar psixoloqların hazırlanmasına böyük ehtiyac var. Çünki hər bir məktəbdə bir psixoloq var, bəzi yerlərdə isə psixoloq çatışmır.

Biz sığınacaqlarda oluruq. Sığınacaqlarda qeyri-hökumət təşkilatlarının hazırladığı, hansısa sertifikat əldə edən psixoloqlar iş aparırlar. Onlar düzgün yardım göstərə bilmirlər, heç uşaqlarla böyüklərin təsnifatını ayıra bilmirlər. Ona görə də peşəkar psixoloqların hazırlanmasına böyük ehtiyac vardır. Mən düşünürəm ki, psixoloji yardıma ehtiyacı olanlar üçün qaynar xəttin yaradılmasına da böyük ehtiyac var və bu qanunda o da öz əksini tapsa, daha düzgün olar. Çünki həmkarlarım burada çıxış edib göstərdilər ki, bir çox insanlar, doğrudan da, psixoloqlara müraciət etməyə utanırlar, çəkinirlər, bütün ailə problemlərini açıq söyləyə bilmirlər. Ancaq mən düşünürəm ki, belə qaynar xətt olsa, insanlara təcili yardım göstərilsə, bu bir çox hallarda intiharların, sui-qəsdlərin qarşısını ala bilər.

Burada, 21-ci maddədə göstərilən ictimai əsaslarla yaradılacaq Azərbaycan Psixoloqlar Şurasının gələcəkdə bu qanunun icrasına və psixoloji fəaliyyətin əlaqələndirilməsinə nəzarət etməsi məsələsinə də bir az diqqətlə yanaşmaq lazımdır. Çünki ictimai əsaslarla fəaliyyət göstərəcək orqanın səmərəli işləyəcəyi o qədər də inandırıcı deyil. Yaxşı olardı ki, qanunun icrasına nəzarətlə fəaliyyətin əlaqələndirilməsini bilavasitə müvafiq icra hakimiyyəti orqanı həyata keçirsin. Onda düşünürəm ki, bu qanun daha işlək olacaq. Qanun layihəsində qanunun icrasına nəzarət

mexanizminin müəyyənləşdirilməsi vacibdir. Layihədə onu görmədim. Düşünürəm ki, ikinci oxunuşda buna və bəzi digər suallara cavab verilə bilər.

Qanun layihəsinə konseptual cəhətdən, əlbəttə ki, səs verməyi təklif edirəm və düşünürəm ki, ikinci oxunuşda bu qanun daha geniş müzakirə oluna bilər. Bir daha bu qanun layihəsini hazırlayanlara təşəkkürümü bildirirəm. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun, Aqiyə xanım. Nizami Cəfərov.

**N.Cəfərov.** Çox sağ olun, Bahar xanım. Hörmətli millət vəkilləri, mənim yadıma gəlir, bir neçə il bundan qabaq, təxminən bu mövzuda, amma daha çox sosial istiqamətdə bir müzakirə keçirilirdi. Orada bizim böyük psixiatrımız mərhum Ağabəy Sultanov dedi ki, dünyada 20 faiz insan psixi xəstəliklərdən əziyyət çəkir. Yəni bu olduqca ciddi bir problemdir. O vaxtdan mən inanmıram ki, onların sayı azalmış olar. Yəqin bir xeyli də, təbii ki, artıb.

Bu qanun, heç şübhəsiz, çox vacibdir və bunun vacibliyini biz hamımız hiss edirik. Amma üstün cəhəti tək o deyil ki, bu qanun axırı ki, ortaya çıxdı. Üstün cəhəti odur ki, qanun çox mükəmməl bir şəkildə hazırlanıbdır. Burada bir sıra məqamlar var ki, mənə elə gəlir, mürəkkəb məqamlardır, xüsusilə anlayışların izahı, psixoanaliz, koqnitiv psixologiya. Bunlar mürəkkəb izah olunacaq anlayışlardır. Amma tətbiq baxımından çox dəqiq, aydın izah verilibdir. Burada da, təbii ki, Əhliman müəllimin peşəkarlığı özünü göstəribdir.

Psixoloji yardımın növləri, formaları kifayət qədər dəqiq müəyyənləşdirilib. Yəni kənarda qala biləcək bir məqam yoxdur. Ən ciddi məsələlərdən biri mütəxəssis hazırlığıdır. Bizim milli mentalitetlə bağlı, –indi bizim görkəmli psixoloqumuz Səməd Seyidov buradadır, yəqin

sözünü deyəcək, – mentalitet baxımından psixoloq hazırlığında bir az çətinlik olur. Amma mən düşünürəm ki, biz etik cəhətdən psixoloq olmağın və psixoloqa müraciət etməyin zəruriliyini və bunun heç də belə həddindən artıq gizli saxlanılmasının vacib olmadığını qəbul etməliyik. Bu olmasın, yəni burada bir gərginlik keçirilməsin. Çünki psixoloqa müraciət çox vacib şeydir. Burada kompleksin yaranmasına ehtiyac yoxdur və biz bunu aradan qaldırmalıyıq.

Amma mütəxəssis problemimiz həddindən artıq çoxdur. Cəmiyyətin ən müxtəlif təbəqələri əhatə olunur. Könüllülük və məcburilik hüquqi baxımdan əsaslandırılır. Ən ciddi məsələlərdən biri elmi tədqiqatların etikliyi məsələsidir. Elmi tədqiqatlar, təbii ki, genişlənməlidir və o məsələyə ciddi nəzarət olunması zəruridir. Ümumiyyətlə, mən düşünürəm ki, bu qanunu ikinci oxunuşda da qəbul etmək mümkündür. Çünki olduqca mükəmməl hazırlanıb və yəqin ki, elə bir xüsusi qeyd olmayacaq. Sağ olun.

**Sədrlik edən.** Sağ olun, Nizami müəllim. Mən Sizə o fikrinizə görə təşəkkür edirəm ki, psixoloji yardımın sırf konfidensial olmasına çalışmaq məqsədəuyğun deyil. Çünki biz bunu həyatımızın bir hissəsinə çevirmək istəyirik. İnsanın fiziki cəhətdən xəstəlikləri olduğu kimi, ruhi cəhətdən də xəstəlikləri olur. Yəni ona nə dərəcədə diqqət etmək lazımdırsa, bu birisinə də o qədər diqqət edilməlidir. Maarifləndirmə də məhz bu istiqamətdə olmalıdır ki, hər kəsin belə bir ehtiyacı ola bilər və o, bu ehtiyacını rahat, açıq həyata keçirə bilsin. Əlbəttə, gizlətmək kimin isə hüququdur. Gizli saxlamaq istəsə, onu gizli saxlamaq həm də həkimin, psixoloqun borcudur. Ona görə mən düşünürəm, məsələnin bu tərəfi, həqiqətən də, maraqlı bir tərəfidir və biz özümüzü bu istiqamətə

yönəltməməliyik ki, bu məsələlər tam gizli olsun. Baxın, televiziya verilişlərində insanlar gəlir, heç psixoloq deyil, adi jurnalistdir, nəinki onun qarşısında, milyonların qarşısında ürəyini açır, bütün həyatını danışır. Ona görə hesab edirəm, bu sahədə olan maneələr də bu qanun işlək vəziyyətə gəldikdə aradan qalxacaq. Üzr istəyirəm, mən sonraya saxlamaq istəmədim, fikrimi söylədim. İlham Məmmədov, buyurun.

**İ.Məmmədov.** Hörmətli Bahar xanım, hörmətli sədarət, hörmətli millət vəkilləri! Psixoloji yardım haqqında qanun layihəsinin birinci oxunuşun tələblərinə uyğun, konseptual olaraq qəbul olunmasına mən də səs verəcəyəm və təbii ki, bu qanun layihəsini əsaslandırmaq üçün çıxışa yazılmışam və öz fikirlərimi bildirmək istəyirəm.

Bilirsiniz, psixologiya elmi çox böyük və dərin bir elmdir. Əslində, kütlə psixologiyası deyilən bir məfhum da var, psixologiya elmi bunu öyrənən böyük bir elmdir. XX əsrin ən böyük, məşhur psixoloqu, psixoanalitiki, psixoterapevti, nevroloq alimi, mütəfəkkiri olmuş Ziqmund Freyd öz qiymətli tədqiqat əsərlərində, – təbii ki, onun tədqiqat əsərləri psixologiya, tibbin ayrı-ayrı sahələri, sosiologiya, antropologiya, ədəbiyyat və incəsənət sahəsində tətbiq olunaraq çox böyük üstünlüklərə malik olmuşdur, – psixologiyanı bir elm sahəsi kimi yüksəklərə qaldırmışdır. Bu şəxsin psixoanalitika sahəsində apardığı tədqiqatların tətbiq sahəsinin qiymətli olmasını nəzərə alaraq, Fransa dövləti II Dünya müharibəsi vaxtı onu sağ-salamat qalması üçün Almaniya dövlətindən maddi təminat hesabına almışdır.

Bilirsiniz, qanunun yaradılmasını, təbii ki, mən də əhəmiyyətli hesab edirəm. Hesab edirəm ki, bu gün Psixoloji yardım haqqında qanunun yaranması, burada deputat həmkarlarım da fikirlərini əsaslandırdılar, günümüzün, yaşadı-

ğımız reallığın ən vacib bir məqamıdır. Konseptual olaraq fikrimi əsaslandırmaq üçün qeyd etmək istəyirəm ki, bu, bir çox məsələlərin həllində yardımçı olacaqdır. Qanunun əsas fəlsəfəsi, hesab edirəm ki, onun tətbiq dairəsinin məhz 3.3-cü maddəsində göstərilib. "Psixoloq, psixoloji, psixoanaliz, psixodiaqnostika, psixoterapiya" sözlərindən və bu sözləri özündə ehtiva edən söz birləşmələrindən öz adlarında və rekvizitlərində istifadə hüququ, bu qanuna uyğun olaraq fəaliyyət göstərən hüquqi və fiziki şəxslərə məxsusluğunun qeyd olunması onun hüquqi müstəvidə tənzimlənməsini şərtləndirəcəkdir.

Bilirsiniz, çox təəssüf ki, bu gün bu sahədə qeyri-müəyyənlik var. Yəqin ki, biz görürük, bu gün yaşadığımız cəmiyyət, qloballaşan dünya, çox sürətli və güclü şəkildə aldığımız informasiyalar, təbii ki, insanların psixoloji vəziyyətinə, durumuna təsir edir. Bundan, bu psixoloji yardım vasitəsindən istifadə edərək ayrı-ayrı şəxslərin qeyri-qanuni olaraq insanlara qeyri-peşəkar yardım göstərməsinin şahidi oluruq. Ancaq konkret olaraq qanunda qeyd edilir ki, bu qanun dövlətin ekstremal vəziyyətlərdə, yəni risk halları yüksək olan səviyyədə insanlara göstərə biləcəyi yardımın tənzimlənməsi üçün qəbul olunur.

Təbii ki, bu qanunun tətbiqi sahəsində bir çox məqamlar da ortaya çıxacaqdır. Yəqin ki, ikinci oxunuşda ayrı-ayrı maddələrlə bağlı deputat həmkarlarım da öz təkliflərini verəcəklər. Xüsusən burada, məsələn, psixoloji yardım göstərən şəxslərin, peşəkarların hazırlanması sahəsində, 11.4-cü maddədə qeyd olunur ki, "psixoloji yardım göstərən şəxslərə dair peşəkar, etik və digər tələblər müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunur".

Hesab edirəm ki, qanunun tətbiqindən sonra müvafiq icra hakimiyyəti orqanı bu sahəyə cavabdeh olan mütəxəs-

sislərin hazırlanmasına öz töhfəsini verəcəkdir. Psixoloji yardımın növləri və formaları maddəsinin “psixoloji diaqnostika” adlı 4.1.4-cü maddəsində “psixoloji problemlərinin öyrənilməsi məqsədilə şəxsiyyətin fərdi-psixoloji xüsusiyyətlərinin qiymətləndirilməsi” qeyd olunur. Bu çox əhəmiyyətlidir. Doğrudan da, qanun layihəsində çox əhəmiyyətli bir məqama toxunulubdur.

Mən qısaca bir-iki maddədən misallar gətirmək istəyirəm. Bu gün psixologiya elmi, yəni psixoloji yardım əksər sahələri əhatə edir. Təhsil, tədris, cəzaçəkmə müəssisələri, uşaq bağçaları, hərbi hissələr. Bu, bütün bu sahələrdə tətbiq olunacaq bir qanun olacaqdır.

Bu yaxınlarda eşidirik ki, hansısa bir bağçada tərbiyəçinin uşaqlara qarşı kobud rəftarı və psixoloji diaqnostika sahəsində belə insanların...

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini **Ziyafət Əsgərov** sədrlik edir*

**Sədrlik edən.** Sağ olun. Səməd Seyidov.

**S.Seyidov.** Çox sağ olun, Ziyafət müəllim. Hörmətli Əhliman müəllim, hörmətli millət vəkilləri, mən ilk öncə sizin hamınızı belə bir mükəmməl və doğrudan da, çox vacib, cəmiyyətimiz üçün əhəmiyyətli qanun layihəsinin təqdim olunması ilə əlaqədar olaraq təbrik etmək istəyirəm.

Bilirsiniz, burada bir məqamı xüsusi qeyd etmək lazımdır. Psixologiya sıradan bir elm deyil, psixologiya həm də cəmiyyətin nə səviyyədə inkişaf etməsi ilə bağlı bir indikatordur. Amerika Birləşmiş Ştatlarında, Avropa ölkələrində, dünyanın müasir, yəni inkişaf etmiş ölkələrində psixologiyadan çox geniş şəkildə istifadə olunur. Gün-

dəlik istifadə olunur, həm psixoloqlardan, həm psixoloji yardımdan, həm psixoloji anlayışlardan. Bu heç də o demək deyil ki, onların problemləri bizim problemlərimizdən çoxdur. Yaxud bizim problemlərimiz onların problemlərindən çoxdur. Harada insan varsa, orada psixologiya var.

Səhiyyə komitəsi Psixoloji yardım haqqında qanun layihəsini təqdim edib. Ancaq bu qanun layihəsi istisnasız olaraq bütün komitələrə aiddir. Ona görə, bu nöqteyi-nəzərdən, Psixoloji yardım haqqında qanun layihəsi bu gün Azərbaycan cəmiyyətinin bu kimi inkişafa və bu kimi sahəyə hazır olmasını və insanların bu yardımdan da bəhrələnib öz daxili aləmini inkişaf etdirmək məsələsini gündəmə gətirir. Bu, çox vacib və çox əhəmiyyətli bir məsələdir. Burada çox vacib, incə bir məqam var. Psixologiya norma ilə işləyir, yəni xəstəlik ilə yox. Xəstəlik ilə işləyən psixiatriyadır. Psixiatriya hansı isə, doğrudan da, anormal hadisələri və xəstələri müəyyən edir, müalicə edir və sair. Psixoloqlar yalnız norma ilə işləyirlər. O cümlədən xəstələrlə də işləyirlər. Ancaq xəstələrin psixologiyasını öyrənirlər. Onun adı isə klinik psixologiyadır. Yəni xəstəxanaların da içində psixoloqlar mütləq işləməlidir və işləyirlər də. Ancaq xəstəliyin bir proses kimi özünü öyrənmirlər, xəstənin davranışının, xəstənin sağalması prosesinin bir psixoloji alət kimi öyrənilməsi üçün öz əllərindən gələni edirlər, o cümlədən də normal həyatımızda. Məktəbimizdə, ordumuzda, ali məktəbimizdə, bağçalarımızda, hər bir yerdə, siyasətdə.

Bu yaxınlarda biz bir mərkəz – Siyasi Psixologiya Mərkəzi açdıq. Onun da mütəxəssislərinin məsləhəti Əhliman müəllimin sədrlik etdiyi komitədə nəzərə alındı. Ona görə bu nöqteyi-nəzərdən, Psixoloji yardım haqqında qanun layihəsi hamımıza lazım olan, vacib olan bir qanun layihəsidir.

Müddəalar haqqında, təbii, biz ikinci oxunuşda öz sözümüzü deyəcəyik. Ancaq ümumi şəkildə, ilk dəfə Azərbaycan qanunvericiliyində belə bir vacib, əhəmiyyətli qanun layihəsinin qəbul olunmasının biz ikiəlli tərəfdarıyıq. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. İsa Həbibbəyli.

**İ.Həbibbəyli.** Hörmətli Ziyafət müəllim, hörmətli deputat həmkarlarım! Mən də ilk növbədə Psixoloji yardım haqqında qanun layihəsinin cəmiyyətin sosial sifarişindən doğan, ciddi ehtiyac olan bir sənəd kimi, bir layihə kimi əhəmiyyətli olduğunu ayrıca qeyd etmək istəyirəm. Bununla bərabər, eyni zamanda, qeyd etmək istəyirəm, bu qanun layihəsində yaxşı cəhət odur ki, psixoloji yardım dedikdə yalnız məktəblər yox, bu məsələyə geniş baxılaraq cəmiyyətin bütün sahələrində, bu yardımın tətbiq olunduğu bütün sahələrdə, ailədən tutmuş, cəzaçəkmə müəssisələrinə, silahlı qüvvələrə qədər göstərilməsinin mexanizmləri elmi şəkildə, qanunvericiliyə uyğun şəkildə müəyyən olunur. Bir başqa cəhəti də qeyd etmək istəyirəm. Psixoloji yardım haqqında qanun layihəsində, –mən hesab edirəm ki, bu, mühüm əhəmiyyət kəsb edən cəhətlərdən biridir, – maarifləndirmə tədbirlərinin həyata keçirilməsinə, tənzim olunmasına xüsusi diqqət yetirilib. Bundan başqa, burada maarifləndirmə tədbirləri ilə yanaşı, psixoloji yardımın anonimliyi və psixoloji yardımdan imtina etməyin səbəbləri haqqında olan müddəalar da obyektivdir, cəmiyyət həyatında gedən proseslərə tamam uyğundur. İşləyə və fayda verə biləcəkdir.

Qanun layihəsini hazırlayanların nəzərinə bir qeydimi də çatdırmaq istəyirəm. Əsas anlayışlar hissəsində verilən anlayışların əksəriyyəti, demək olar ki, bu qanunun müddəalarının gücləndirilməsinə kömək edir və elmi cəhətdən

də obyektiv səslənir. Amma buradakı "sessiya" sözünü, məncə, dəqiqləşdirməyə ehtiyac vardır. Çünki psixoloji yardıma ehtiyacı olan ilə psixoloji yardımı həyata keçirənin birgə məşğələsinin adı kimi burada təqdim olunan sessiya sözü, eyni zamanda, bizim leksikonumuzda elmi sessiya, imtahan sessiyası kimi də istifadə olunur. Məncə, burada bir dəqiqləşdirməyə ehtiyac vardır. Bütövlükdə qanun layihəsində psixoloji yardımın konsepsiyası mükəmməl işlənib hazırlanıbdır. Mən buna konseptual olaraq səs verməyi məqsədəuyğun sayıram.

**Sədrlik edən.** Sağ olun. Zahid Oruc.

**Z.Oruc.** Mən anlayıram, hamımızın beynində qurulmuş bir saat var, saat 6-ya yaxınlaşır. Ona görə çox qısa, bəlkə iki dəqiqə yarıma fikirlərimi ümumiləşdirməyə çalışacağam. Birinci növbədə, mən bu qanun layihəsinə falçıların, baxıcıların uzun illər cəmiyyətdə özünə yer eləyən ticarətinin meydanının bəlkə bir qədər daralması kimi baxıram.

Həqiqətən də, Qərb ölkələrinin hamısında psixoloji yardım ictimai, sosial, ailə həyatının və şəxsi həyatın ayrılmaz hissəsidir. Mən Azərbaycanda xaricdə təhsil üzrə ixtisaslaşan bir mərkəzin rəhbərini tanıyıram. Özü xarici ölkələrdə təhsil alıb, kifayət qədər peşəkar bir insandır. Deyir ki, bizim balalarımız – abituriyentlərimizi, yaxud xaricdə təhsil alan uşaqlarımızı nəzərdə tutur, – hamısı qəhrəmandır. Ona görə qəhrəmandır ki, gedib orada ictimai mühitə adaptasiya olurlar, fərqli millətlərin mühitində baş çıxarırlar. Məsələn, "study skills", biz axı bunu heç vaxt keçmirik. Gedib orada esse yazmağa, "assignement" yazmağa, digər bütün bu proseslərə hazır olurlar, uyğunlaşa bilirlər. Britaniyada orta məktəblərdə hər 5-ci gün psixoloji yardım günüdür, o uşaqların hamısı onu alırlar. Bizimkilər isə, burada radar, kamera, bütün nəzarət mexaniz-

mini bərqərar edirik, amma görürük, istədiyimiz yenə də alınmır. Niyə alınmır? Çünki okeanın içərisinə atılırlar. Fərqli mentallıq, fərqli ənənələr, fərqli dəyərlərin içərisindədirlər. Bunlar psixoloji yardım üçün gedəndə biz narahat oluruq. Hara gedirsən, deyirik. Halbuki Qərb ölkələrində təhsil sistemində psixoloji yardım mühüm bir komponentdir, mühüm bir elementdir. Mən buna belə baxıram.

Çox haqlı olaraq deyildi, postmüharibə sindromu deyilən bir fenomen, sindrom var. Azərbaycan cəmiyyətində də bu var. Müharibə yaşayan ölkələrin hamısında bu xarakterik olub. Amerika Birləşmiş Ştatları Vyetnam müharibəsini uduzanda oradan qayıdan əsgərlərin böyük bir hissəsini cəmiyyət qəbul etmədi. O adamlarla bağlı yüzlərlə film çəkilib. Onlar qanqsterlərə çevrildilər, killer oldular və sair kimi sahələrə getdilər, özlərinə əl qaldırdılar, intihar etdilər. Niyə? Çünki o məğlubiyyət yaşamış əsgəri Amerika anası qəbul etmək istəmədi. Biz də bu məğlubiyyət kompleksini yaşamışıq. Ona görə Azərbaycan cəmiyyətinin psixoloji yardıma ehtiyacı var. Bu yaxınlarda Kerçdə, bilirsiniz, məktəbdə qanlı hadisə baş verdi. Mən müxtəlif reaksiyaları izlədim, amma Putinin mövqeyi diqqətimi daha çox çəkdi. Dedi ki, axı bunların hər gün axşam ekrandan, internet axınlarından aldıqları xəbərlər nədir? Caninin, quldurun, kriminalın qəhrəmanlaşdırılması. O, oğrunu, canini, həbsxanada yatan adamları özü üçün nüfuz sahibi, simvol hesab edir. Ona uyğun özünü görür. O adam, o uşaq, 17, 18 yaşında o qatil cəmiyyətə nifrət etdiyini söyləyib, o hadisələri törədib. Azərbaycan cəmiyyətində də axtarsaq, heç şübhəsiz, beləleri var. Suriyaya gedənlər də elə bu xəyalın daşıyıcılarıdır. Ona görə də mən bu layihəni gerçəkdən çox tarixi sənəd hesab edirəm.

Psixoloji yardım məsələsi milli məsələdir. Bunu biz

həyatımızın ayrılmaz hissəsinə çevirməliyik, bundan çəkinməli deyilik. Hələ də sovet kompleksləri içərisində yaşayırıq. Elə bilirik ki, psixoloji yardım alsaq, bizim üzərimizdə bir psix yarlığı olacaq. Hörmətli Səməd müəllim haqlı olaraq dedi, hələ də bizdə psixiatriya və psixoloq sözlərinin ilkin hissəsinin üst-üstə düşməyinə görə bunları qarışdıranlar var. Elə bilirik ki, bu ailə üzərində bir ləkə yaradar və sonra onun həyatını qurmağına təsir edər. Mən bu sənədə səs verəcəyəm. Bağışlayın, 4 dəqiqə oldu. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Ülviyyə Həmzəyeva.

**Ü.Həmzəyeva**. Hörmətli Ziyafət müəllim, hörmətli millət vəkilləri, hörmətli Əhliman müəllim! Müasir dövrdə psixologiya insan haqqında ən mühüm elmlərdən biri kimi diqqəti cəlb edir. Təsadüfi deyil ki, hazırda insan həyatının və fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya elmi oraya nüfuz etməsin. Təbii olaraq, bayaq məhz elə Qüdrət müəllimin, Aqiyə xanımın, Bahar xanımın, Sizin qeyd etdiyiniz kimi, yəni o məsələlər hər birimizin ürəyindən bu gün bir səda oldu. Mən qeyd etmək istəyirəm ki, ən əsası bu gün yeni ailə quranlar üçün ailə psixoloqlarının olmasıdır. Çünki bilirsiniz ki, psixoloqlar həm ekstrasenslər kimi, həm də motivasiya verən insanlar kimi insan psixikasına nüfuz edərək, yəni insanları müəyyən bir yola sövq edə və müəyyən bir yoldan çəkindirə də bilərlər. Çox vacibdir ki, psixoloqlar məhz ali təhsilli olsunlar.

Bu gün müxtəlif kursları bitirən insanlar özlərini psixoloq kimi təqdim edir, fəaliyyət göstərirlər. Onlar insanlara məhz psixologiya elmi haqqında, həm də onların psixoloji durumu haqqında müəyyən məsləhətlər verə, problemlərinizi həll edəcəyəm deyə onları başqa yerlərə də sürükləyə bilərlər. Bu gün Psixoloji yardım haqqında qanun layihəsinin qəbulu mühüm məsələlərdən biridir. Mükəmməl

işlənmişdir. Mən inanıram ki, gələcəkdə psixoloqlar psixoloji yardım alan şəxslərə böyük yardım göstərəcəklər. Mən bu qanun layihəsinə müsbət rəy bildirəcəyəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Ülviyyə xanım. Əhliman müəllim, buyurun.

**Ə.Əmiraslanov.** Çox hörmətli Ziyafət müəllim, çox hörmətli millət vəkilləri! Mən Psixoloji yardım haqqında qanun layihəsi barəsində çıxış edən həmkarlarımın hər birinə dərin təşəkkürümü bildirirəm. Şübhəsiz ki, onların qaldırdıqları məsələlər və verdikləri təkliflər növbəti oxunuşda nəzərə alınacaqdır və onlara bir daha təşəkkürümü bildirirəm.

Ziyafət müəllim, mən bir məsələyə münasibət bildirmək istəyirəm. Səməd müəllim də, Zahid müəllim də qeyd etdilər, doğrudan da, insanları psixoloji yardımdan bütövlükdə, yaxud qismən çəkindirən, yaxud da psixoloqa anonim müraciət etməyə vadar edən əsas amillərdən biri onların psixiatriyanı və psixologiyanı bir-birindən ayırmaması və ya səhv salmalarıdır. Doğrudan da, bunlar bir-birinə yaxın sahələr olsalar da, bir-birindən tamamilə ayrı, bir-birindən xeyli fərqli sahələrdir. Ona görə ki, psixoloji yardım sağlam insanlar üçün istifadə olunan bir vasitədir. Psixiatriya müalicəsində isə artıq söhbət dərman müalicəsindən, müxtəlif vasitələrdən gedir. Ona görə də, Qüdrət müəllim qeyd etdi, maarifləndirmə sahəsində güclü tədbirlər həyata keçirilməlidir. Bu, mənə belə gəlir ki, xüsusilə tədris müəssisələrinin üzərinə düşür. Yəni bizim insanların hər biri psixiatriyanın nə olduğunu, psixologiyanın və psixoloji yardımın nə olduğunu bilsələr, bir çox problemlər ortadan qaldırılmış olar. Bir daha hər birinizə təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun, Əhliman müəllim, təşəkkür edirəm. Hörmətli həmkarlar, hamınıza təşəkkür edirəm, doğrudan da, çox dəyərli bir qanun layihəsidir. Arzum nədir? Arzum odur ki, cəmiyyətimizdə heç pis psixoloqlar olmasın, yaxşı psixoloqlar olsun. Buyurun, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək və bununla da yekunlaşdıraq.

| **Səsvermənin nəticələri** | (saat 18.07 dəq.) |
|---|---|
| Lehinə | 93 |
| Əleyhinə | 0 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun.

Bununla da iclasımız sona yetdi.